Xalqın qəzeti!

# Xalq qəzeti

№ 252 (30368) 19 noyabr 2023-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az


# Azərbaycana hüquqi təzyiq cəhdi alınmayacaq

## Beynəlxalq Ədalət Məhkəməsi erməni yalanlarına hansı dəstəyi göstərib?

**Beynəlxalq Ədalət Məhkəməsi də belə demək mümkünsə, erməniləri müdafiə trendinə qoşuldu. Əslində, bunu gözləmək olardı. Çünki birincisi, qurumun əvvəllər də belə bir "təcrübəsi" olub. İkincisi isə hazırda sözügedən "trend" aktual olduğundan, BƏM ümumi axına qarşı üzəcək deyildi. Əlqərəz, söhbət qurumun Ermənistanın Azərbaycana qarşı işində müvəqqəti tədbirlərin tətbiqi ilə bağlı qərarından gedir.**



Bəli, BMT-nin ali məhkəmə instansiyasının əvvəllər də Azərbaycan və Ermənistan arasındakı münaqişəli duruma yönələn hüquqi yanaşması olub. Söhbət Laçın yolu ilə bağlı qərardan gedir. Məhkəmə yolun açıq saxlanmasının vacibliyini vurğulamışdı. Burada mühüm məqam ondan ibarətdir ki, Ermənistan və havadarları "Laçın dəhlizi" məntiqinə köklənir, onun ayrıca statusunun olduğunu vurğulayırdılar. Təbii ki, mövcud xüsusda BƏM-in ötən il çıxardığı məcburiyyət qərarını sıradan məsələ saymaq olmazdı.

Əlbəttə, 44 günlük müharibədən sonra Laçın yolu açıq olmuşdu. Ancaq Ermənistan bundan sui-istifadə etmiş, Qarabağa hərbi texnika, silah-sursat, o cümlədən yüzlərlə azərbaycanlının ölümünə səbəb olmuş mina və digər partlayıcı vasitələr daşımışdı. Nəticədə Azərbaycan hakimiyyəti yolun ancaq humanitar məqsədlər üçün istifadəsi məntiqini irəli sürmüş və mövcud istiqamətdə addımlar atmışdı. BƏM-in məlum qərarı da məhz həmin tədbirlərlə bağlı Ermənistanın şikayəti sonrası çıxarılmışdı. Ölkəmiz isə Laçın yolunun humanitar məqsədlər üçün açıqlığı kazusunu əsas tutaraq, BƏM-in qərarını icra etdiyini önə çəkmişdi. Beynəlxalq hüquq nöqteyi-nəzərdən də bu, düzgün yanaşmadır.

(ardı 3-cü səhifədə)

# Absurdustan

## Hayastan fırtınada səmtini itirmiş qayığa bənzəyir




**Hər yerdən və hər tərəfdən ümidi kəsilməkdə olan İrəvan üz tutub imdad diləmək üçün yeni-yeni ünvanlar axtarışındadır. Ermənistan hakimiyyətinin BMT-nin Beynəlxalq Ədalət Məhkəməsinə (BƏM) müraciətinə məhz bu baxımdan yanaşmaq daha məntiqli olar. Fəqət onun planetin Ali femidası qarşısında Azərbaycana qarşı qaldırdığı 10 iddiasından 7-sinin rədd edilməsi həmin müraciətin yersizliyini, səmərəsizliyini deməyə əsas verir.**

Ermənistanın ölkəmizə qarşı irəli sürdüyü, amma BƏM-in 17 noyabr 2023-cü il tarixli qərarı ilə rədd edilən iddialarından biri Azərbaycanın hərbi və hüquq-mühafizə orqanlarının Qarabağ bölgəsindən çıxarılması ilə bağlı olub. Yəni rəsmi İrəvan Azərbaycanın suveren ərazisindən özünün dövlət atributu sayılan hüquq-mühafizə qurumlarını çıxarması kimi heç bir hüquqa və məntiqə sığmayan gülünc və absurd iddia da qaldırıbmış. Bu iddia təmin edilməsə də, Azərbaycanın Qarabağı tərk etmiş və geri qayıtmaq istəyən ermənilərə şərait yaratmaq öhdəliyi qəbul edilib. Məgər Bakı həm antiterror tədbirindən əvvəl, həm də onun gedişində ən yüksək səviyyədə bunu etməyə hazır olduğunu bildirməyib? Ermənistan hakimiyyətinin bunun üzərindən "Azərbaycan Qarabağ ermənilərinin geri qayıtmasını təmin etməlidir" iddiası hansı hüquqi müstəvidə və necə tövsif oluna bilər? Bu, hüquqi nonsens olmaqla yanaşı, sadəcə absurddur.

(ardı 4-cü səhifədə)

# Qədim Qarabağın yeni Ağdamı...



**Etiraf edək ki, qədim və gözəl Qarabağımızın aran hissəsindən giriş qapısı olan Ağdam şəhərinin və bu rayonun ərazisinin üçdə ikisinin düşmən tərəfindən işğal edilməsi, buranın uzun illər ərzində vəhşicəsinə yağmalanması, vandalcasına dağıdılması dünyanın harasında yaşamasından asılı olmayaraq hər bir soydaşımızın heysiyyatına toxunurdu.**

Qəlbimizdə bu ədalətsizliyə qarşı sonsuz hiddət, qəzəb və intiqam hissi alovlanırdı. Ağdam Birinci Qarabağ müharibəsində ən çox şəhid verən rayondur. Ermənilərlə döyüşlərdə 6 minə yaxın rayon sakini şəhid olmuşdur ki, onlardan 16-sı Milli Qəhrəman adına layiq görülmüşdür. Ağdam heç vaxt düşmənə baş əyməmiş, sonuna qədər vuruşmuşdur. İkinci Qarabağ müharibəsində də ağdamlılar cəsarətlə vuruşmuş və şəhidlər vermişdir.

(ardı 8-ci səhifədə)

# Paşinyan "sülhpərvər" cildində...



## Hayların baş nazirinin ATƏT PA-nın sessiyası ilə eyni gündə "Sülhün kəsişməsi" layihəsini təqdim etməsi ucuz siyasi gedişdir

**Dünən İrəvanda Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (ATƏT PA) payız sessiyası öz işinə başlayıb. "Böhran dövründə ATƏT: daxili və xarici çağırışlara cavab verməkdə parlament assambleyasının rolu" devizi altında keçirilən 21-ci payız sessiyası Karen Dəmirçyan adına idman-konsert kompleksində təşkil olunub. Gündəliyə korrupsiyaya qarşı mübarizə və azlıqların müdafiəsi ilə bağlı məsələlər daxildir. Ancaq sessiyada Cənubi Qafqazla bağlı məsələlər də müzakirə olunacaq, ikitərəfli görüşlər təşkil ediləcək.**

Qeyd edək ki, ATƏT PA-nın sessiyası Ermənistanda ilk dəfə keçirilir. Noyabrın 20-dək davam edəcək sessiya dünən səhər Daimi Komitənin iclası ilə başlayıb. Burada heç bir siyasi məsələyə toxunulmayıb. Əsasən prosedur qaydalar müzakirə olunub. Günortadan sonra sessiyanın açılış mərasimi keçirilib. Bu zaman Ermənistanın baş naziri Nikol Paşinyan salamlama nitqi söyləyib. Onun sülh istiqamətində söylədiyi fikirlər diqqət çəkib. Paşinyan deyib ki, Ermənistan və Azərbaycan sülh sazişinin əsas prinsipləri barədə razılığa gələ biliblər: "Ermənistan–Azərbaycan sülh prosesi ilə bağlı yaxşı və pis xəbərlərimiz var. Azərbaycanla sülhün əsas prinsipləri razılaşdırılıb. Bu, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycan Prezidenti ilə Brüsseldə görüşlərimiz nəticəsində baş verib. Ən böyük pis xəbər isə odur ki, tərəflər hələ də müxtəlif diplomatik dillərdə danışırlar və çox vaxt bir-birini başa düşmürlər".

(ardı 3-cü səhifədə)

# Soydaşlarımızın tarixi Vətənə qayıtmaq hüququ



Səhifə ⇨ 9

# İqtisadi inkişaf maliyyə sistemini möhkəmləndirir



**İqtisadiyyat naziri Mikayıl Cabbarov Milli Məclisdə 2024-cü il və sonrakı 3 il üçün dövlət büdcəsi layihəsinin müzakirəsindəki çıxışında builki əsas maliyyə sənədi haqqında tamamilə fərqli qlobal və regional geosiyasi reallıqlar şəraitində fikirlər səsləndirildiyini vurğulayıb. O, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın tam olaraq öz ərazi bütövlüyünü təmin etdiyini və bunun ölkənin gələcək sosial-iqtisadi inkişafına çoxsaylı yeni imkanlar açan böyük bir tarixi hadisə olduğunu diqqətə çatdırıb.**

Nazir daha sonra bildirib ki, qlobal geosiyasi eskalasiyanın və geoiqtisadi fraqmentasiyanın güclənməsi səbəbindən son dərəcədə mürəkkəb qlobal iqtisadi fonda Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafı davam etdirilir, Prezident tərəfindən müəyyənləşdirilən strateji inkişaf kursu bütün istiqamətlərdə uğurla həyata keçirilir.

(ardı 7-ci səhifədə)

# Birtərəfli açıqlama, siyasi riyakarlıq

**Bugünlərdə Avropa İttifaqının rəsmisi Peter Stanonun Ermənistanın "Armenpress" xəbər agentliyinə verdiyi müsahibəsində əksini tapmış təxribatçı və ayrı-seçkilik xarakterli açıqlamaları regionda vəziyyəti gərginləşdirməyə yönəldiyindən ölkəmizin rəsmi etirazı ilə cavablandırıldı.**



(ardı 9-cu səhifədə)

# "Ruhlar şəhəri"ndə "yaşıl enerji"




Səhifə ⇨ 8

# Şəhriyarın məzarı önündə düşüncələr

Səhifə ⇨ 10

# Omanın Sultanı Əlahəzrət Heytəm bin Tariq Al Səidə

**Əlahəzrət,**

Oman Sultanlığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Oman xalqına daim firavanlıq və əmin-amanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 noyabr 2023-cü il**

# V.V.Mustafayevin Azərbaycan Respublikasının müdafiə sənayesi naziri təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Vüqar Valeh oğlu Mustafayev Azərbaycan Respublikasının müdafiə sənayesi naziri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 noyabr 2023-cü il**

# V.V.Mustafayevin Azərbaycan Respublikası müdafiə sənayesi nazirinin müavini vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Vüqar Valeh oğlu Mustafayev Azərbaycan Respublikası müdafiə sənayesi nazirinin müavini vəzifəsindən azad edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 noyabr 2023-cü il**

# M.Q.Quliyevin Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin müavini təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Mədət Qəzənfər oğlu Quliyev Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin müavini təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 noyabr 2023-cü il**

# M.Q.Quliyevin Azərbaycan Respublikasının müdafiə sənayesi naziri vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Mədət Qəzənfər oğlu Quliyev Azərbaycan Respublikasının müdafiə sənayesi naziri vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 noyabr 2023-cü il**

# Ç.Ə.Fərzəliyevin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan təsviri sənətinin inkişafında və təbliğində böyük xidmətlərinə görə Çingiz Əbdül Məcid oğlu Fərzəliyev "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 noyabr 2023-cü il**

# "Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyul tarixli 779 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 27-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyul tarixli 779 nömrəli Fərmanında (Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 oktyabr tarixli 848 nömrəli və 2020-ci il 30 yanvar tarixli 917 nömrəli fərmanları) dəyişikliklər təsdiq edilsin.

**2.** Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 noyabr 2023-cü il**

# "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 8 iyul tarixli 587-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 8 iyul tarixli 587-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 567 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 582; 2003, № 8, maddə 441; 2005, № 9, maddə 800; 2009, № 6, maddə 419; 2014, № 7, maddə 790; 2015, № 3, maddə 265; 2017, № 5, maddələr 808, 843; 2020, № 12 (I kitab), maddə 1501; 2021, № 6 (I kitab), maddələr 566, 579) ilə təsdiq edilmiş "Sınaq müddəti ilə müvafiq dövlət orqanlarında dövlət qulluğuna qəbul üçün əmək müqaviləsinin (kontraktının) nümunəsi"nin 1.1-ci bəndinə "başlayanlar" sözündən sonra "və "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan şəxslər" sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 90, № 7, maddə 625, № 11, maddə 996; 2012, № 9, maddə 853, № 11, maddə 1084; 2013, № 2, maddə 124, № 12, maddə 1525; 2014, № 7, maddə 789, № 9, maddə 1053; 2015, № 1, maddə 17, № 3, maddələr 263, 264, № 6, maddə 705, № 8, maddə 908, № 10, maddə 1134; 2016, № 3, maddə 437, № 5, maddə 859, № 6, maddələr 1051, 1072, № 9, maddə 1633; 2018, № 3, maddə 433, № 6, maddə 1245; 2019, № 1, maddə 73, № 2, maddə 245, № 5, maddə 845, № 6, maddə 1036, № 7, maddə 1232, № 8, maddə 1397, № 11, maddə 1718, № 12, maddə 1935; 2020, № 3, maddə 247, № 6, maddə 717, № 8, maddə 1036; 2021, № 4, maddə 318, № 8, maddə 922, № 12, maddə 1403; 2022, № 7, maddə 762, № 8, maddə 871, № 11, maddə 1261; 2023, № 3, maddə 361, № 5, maddə 650, № 7, maddələr 936, 958) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"nin 4.1.12-2-ci yarımbəndində "işəgötürənlərin" sözü "sığortaedənlərin dövlət sosial sığorta sistemində" sözləri ilə əvəz olunsun və həmin yarımbəndə (ikinci halda) "fərdi" sözündən əvvəl "dövlət sosial sığorta sistemində" sözləri əlavə edilsin.

**3.** "Sosial sığorta ehtiyatından istifadə Qaydası"nın və "Sığortaolunanlar üzrə xüsusi hesaba əlavə vəsaitlərin ödənilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 1597 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 9, maddə 1644; 2019, № 1, maddə 73; 2021, № 5, maddə 448, № 9, maddə 987) aşağıdakı dəyişikliklər edilsin:

3.1. həmin Fərmanla təsdiq edilmiş "Sosial sığorta ehtiyatından istifadə Qaydası"nın 2.1-ci bəndinə "fərdi" sözündən sonra "şəxsi" sözü əlavə edilsin;

3.2. həmin Fərmanla təsdiq edilmiş "Sığortaolunanlar üzrə xüsusi hesaba əlavə vəsaitlərin ödənilməsi Qaydası" üzrə:

3.2.1. 2.3-cü bəndin birinci cümləsində "uçot sistemində qeydiyyatı" sözləri "şəxsi hesabı" sözləri ilə əvəz olunsun və həmin bəndin ikinci cümləsinə (hər iki halda) "fərdi" sözündən sonra "şəxsi" sözü əlavə edilsin;

3.2.2. 3.2-ci bənddə "sığortaolunan şəxsin uçotu dövründə sosial sığorta nömrəsi ilə açılmış fərdi" sözləri "sığortaolunanın fərdi şəxsi" sözləri ilə əvəz edilsin;

3.2.3. 3.3-cü bəndə "Fərdi" sözündən sonra "şəxsi" sözü əlavə edilsin;

3.2.4. 5.2-ci bəndə "fərdi" sözündən sonra "şəxsi" sözü əlavə edilsin.

**4.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2544; 2019, № 7, maddələr 1213, 1233, № 12, maddə 1935; 2020, № 8, maddə 1039; 2021, № 5, maddə 435, № 6 (I kitab), maddələr 579, 583, № 8, maddə 922, № 9, maddələr 983, 987, № 11, maddə 1212, № 12, maddə 1403; 2022, № 12, maddə 1448; 2023, № 2, maddə 219, № 7, maddələr 935, 974) ilə təsdiq edilmiş "DOST" mərkəzlərində göstərilən xidmətlərin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 8-ci hissənin adı aşağıdakı redaksiyada verilsin:

8. Dövlət sosial sığorta sistemində fərdi uçotla bağlı göstərilən xidmətlər

4.2. 8.1-ci bənd ləğv edilsin;

4.3. aşağıdakı məzmunda 8.3-1-ci bənd əlavə edilsin:

8.3-1. sığortaolunanın fərdi şəxsi hesabındakı məlumatlarda dəyişiklik edilməsi ilə bağlı müraciətlərin qəbulu

**5.** Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 fevral tarixli 527 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 226, № 11, maddə 1719; 2020, № 12 (I kitab), maddə 1480; 2021, № 6 (I kitab), maddə 579; 2022, № 4, maddə 323) ilə təsdiq edilmiş "Dövlət qulluqçusunun şəxsi işinin aparılması Qaydaları"na 2 nömrəli əlavə – "Kadrlar uçotunun şəxsi vərəqəsi"nin "Dövlət sosial sığorta sistemində sosial sığorta nömrəniz (SSN)" sətrində "Dövlət sosial sığorta sistemində sosial" sözləri "Sosial" sözü ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 may tarixli 690 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 842; 2020, № 12 (I kitab), maddə 1501; 2021, № 8, maddə 923) ilə təsdiq edilmiş "Daimi dövlət qulluğuna qəbul edilən şəxslə bağlanılan əmək müqaviləsinin nümunəsi"nin 1.1-ci bəndində "istisna olmaqla, dövlət" sözləri "və "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan şəxslər istisna olmaqla," sözləri ilə əvəz edilsin.

**7.** Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyun tarixli 1077 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 718; 2021, № 5, maddə 446, № 6 (I kitab), maddə 572, № 8, maddə 923, № 9, maddə 987, № 12, maddə 1403; 2022, № 4, maddələr 323, 329; 2023, № 4, maddə 493, № 7, maddə 936) ilə təsdiq edilmiş "Dövlət Sosial Müdafiə Fondunun Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

7.1. 2.1.5-ci yarımbənddən "və uçotdan çıxarılmasını" sözləri çıxarılsın və həmin yarımbəndə "fərdi" sözündən əvvəl "dövlət sosial sığorta sistemində" sözləri əlavə edilsin;

7.2. 3.1.4-cü yarımbənddən "dövlət sosial sığorta nömrəsi əsasında" sözləri çıxarılsın;

7.3. 3.2.10-cu yarımbəndə "fərdi" sözündən əvvəl "dövlət sosial sığorta sistemində" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 noyabr 2023-cü il**

# "Azərbaycan Respublikasında bəzi sahibkarlıq fəaliyyəti növlərinə lisenziya verilməsinin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 28 mart tarixli 310 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikasında bəzi sahibkarlıq fəaliyyəti növlərinə lisenziya verilməsinin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 28 mart tarixli 310 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 176; 2001, № 10, maddə 640, № 11, maddə 707; 2002, № 9, maddə 555; 2003, № 10, maddə 568; 2004, № 12, maddə 1004; 2005, № 12, maddə 1104; 2007, № 11, maddə 1106; 2008, № 1, maddə 7; 2010, № 10, maddə 857; 2018, № 4, maddə 683; 2022, № 11, maddə 1260) 3-cü hissəsinin birinci abzasından "kosmik-peyk rabitə vasitələrinin," sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 noyabr 2023-cü il**

# Ermənistan bəyanatlara üstünlük verir

**"Ermənistan tərəfinin iki aydan artıq müddətdə yubatdığı "sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında" saziş layihəsinə şərhləri təqdim etmək və müqavilə üzrə danışıqlara başlamaq əvəzinə, Azərbaycana qarşı iddialar səsləndirməsi qəbuledilməzdir".**



Bu fikirləri XİN-in mətbuat katibi Ayxan Hacızadə Ermənistanın baş naziri Nikol Paşinyanın ATƏT Parlament Assambleyasının Ermənistanda keçirilən sessiyasındakı çıxışında Azərbaycanın Ermənistanla münasibətlərin normallaşması üçün Avropa İttifaqının vasitəçiliyi ilə təklif olunan üç prinsip barədə ölkəmizin mövqe bildirmədiyi, əsirləri geri qaytarmadığı və Ermənistana qarşı müharibəyə hazırlaşdığı ilə bağlı söylədiklərini şərh edərkən deyib.

Ayxan Hacızadə deyib: "Ermənistan baş nazirinin baza prinsiplər və sərhədlərin demarkasiyası üzrə iki ölkə arasında anlaşma olduğunu, Ermənistan və Azərbaycanın ərazi iddialarının olmadığını bildirməklə yanaşı, ölkəmizin Ermənistana qarşı müharibəyə hazırlaşdığını bəyan etməsi Ermənistan rəsmilərinin bəyanatlarında nə dərəcədə ziddiyyətli yanaşma tətbiq etdiklərinin göstəricisidir.

Son üç il ərzində Azərbaycan tərəfindən 5 baza prinsipinin, sərhədlərin demarkasiyası, kommunikasiyaların açılması və sülh müqaviləsinin imzalanması istiqamətində irəli sürülmüş təşəbbüslərə baxmayaraq, Ermənistan tərəfi bu prosesə maneə törədib.

Azərbaycan tərəfindən indiyə qədər 100-ə yaxın erməni əsirin geri qaytarılmasına baxmayaraq, Ermənistan tərəfinin bunun müqabilində sərhədi səhvən keçərək əsir götürülmüş şəxslərin geri qaytarılması barədə etimad quruculuğu səylərini pozması, Azərbaycanın iki hərbçisini əsir götürməsi, Ermənistan tərəfinin saxlanılan şəxslərin geri qaytarılması məsələsinə ciddi yanaşmadığını göstərir.

Ermənistanın baş nazirinin "Qərbi Azərbaycan İcması"nın nümayəndələrinin öz doğma torpaqlarına təhlükəsiz və ləyaqətli şəkildə qayıtması istəyinin və bu istiqamətdə apardıqları təbliğatın Ermənistana qarşı "təcavüzə hazırlıq" kimi qələmə verilməsi tamamilə əsassızdır.

Ümidvarıq ki, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması, yaxın zamanda sülh müqaviləsinin imzalanması istiqamətində Azərbaycan tərəfindən edilən çağırışlara Ermənistan tərəfindən adekvat cavab veriləcək".

***XQ***

# Azərbaycana hüquqi təzyiq cəhdi alınmayacaq

(əvvəli 1-ci səhifədə)

Başlıca məqam isə ümumən Laçın yolu ilə bağlı məsələnin BƏM-in qərarına düşməsidir. Özü də söhbət məhz "Laçın dəhlizi" şəklində düşmədən gedir. Ermənistan bunu dividend kimi görür. Avantürist niyyətlərə köklənmiş erməni iqtidarı hesab edir ki, məsələ gələcək mübahisələndirmələr üçün hüquqi zəmindir. Rəsmi İrəvan BƏM-in indiki qərarına da daha çox perspektiv "fayda" kimi baxır.

***

Beləliklə, BMT məhkəməsinin qərarında bildirilir ki, Azərbaycan 2023-cü il sentyabrın 19-dan sonra Qarabağı tərk etmiş və geri qayıtmaq istəyən şəxslərin təhlükəsiz, maneəsiz və tez bir zamanda dönüşünü təmin etməlidir. Görəsən, dönmək istəyən varmı? Əlbəttə, yoxdur. Əgər istəsəydilər, bölgədən çıxmazdılar. Bəs, İrəvan niyə beynəlxalq məhkəməyə üz tutub? Birincisi, qərardan belə çıxır ki, ermənilər bölgəyə qayıtmasalar, bu, Azərbaycanın məsələyə etinasız yanaşması kimi qiymətləndiriləcək.

Nəzərə alaq ki, hazırda Ermənistan və havadarları Qarabağ ermənilərinin yaşam təhlükəsizliyinə və hüquqlarına dair beynəlxalq mexanizmlər iddiasını ortaya atıblar. Halbuki, yanaşma Azərbaycanın suveren hüquqlarına zidd təmayüldür. Ölkəmiz bununla razılaşmayacağı təqdirdə, məsələ həm də Bakının BƏM-in qərarına məhəl qoymaması kimi qiymətləndiriləcək. Əlbəttə, bu daha çox qiymətləndirmə yox, İrəvan üçün manipulyasiya xarakteri daşıyacaq.

İkincisi, "Qarabağı tərk etmiş və geri qayıtmaq istəyən şəxslərin təhlükəsiz, maneəsiz və tez bir zamanda dönüşü" fikrində kollektivlik var. Ermənistanın təbliğat maşını durmadan həmin ermənilərin doğma vətən həsrəti çəkdiklərinə dair hekayələr uydurur. Yəni, beynəlxalq ictimai rəydə, bir növ, Qarabağ nisgili yaradılır. BƏM-in qərarındakı məqam isə ona hesablanıb ki, nə zamansa bölgəyə qayıdış üçün kollektvilik amili əsas götürülsün. Yəni, Ermənistan güclənəcək, Azərbaycana hücum çəkəcək və "qarabağlıların" öz yurdlarına qayıtmalarında hüquqi istinadgah olacaq.



Göründüyü kimi, ilk baxışdan adi sayıla biləcək məsələdə məkrli niyyət var. Nəzərə alınmır ki, ölkəmiz onsuz da Qarabağ ermənilərinin rahat və təhlükəsiz yaşamları üçün təminat verərkən, məsələnin Azərbaycan yurisdiksiyasına uyğun şəkildə reallaşdırılmasının vacibliyini önə çəkir. Ermənistan isə bilavasitə olmasa da, Qarabağ erməniləri üzərindən bölgəyə status qazandırılması kimi avantürist niyyəti güdür. Bu baxımdan, BƏM-in hazırkı qərarı da tutacaq yeri kimi qiymətləndirilə bilər. Bir daha bildirək ki, güclü tərəf məsələni istədiyi formada interpretasiya etmək imkanına malikdir. Hazırda güclü tərəf Azərbaycandır.

***

Bundan əlavə, Beynəlxalq Ədalət Məhkəməsinin qərarına əsasən, Azərbaycan 19 sentyabr 2023-cü il tarixindən sonra hələ də Qarabağda olan və getmək istəyən şəxslərin təhlükəsiz, maneəsiz və tez bir zamanda bölgəni tərk etmələrinin təminatına borclu sayılır. Göründüyü kimi, məsələyə "kompleks" yanaşma ifadə olunmaqdadır. Guya ki, insan amilini nəzərə alınıb. Yəni, "Qarabağa gəlmək varkən, oradan getmək də olmalıdır" məntiqi əsas götürülür. Belədə ortaya sual çıxır: İndiyədək BƏM hansısa ölkənin suveren ərazinə gəlmək və getməklə bağlı həmin ölkəyə münasibətdə ayrıca məsuliyyət müəyyənləşdiribmi? Əlbəttə ki, belə absurd şeyi məhkəmə qərarına daxil etmək heç kəsin ağlına gəlməz. Bəli, bütün absurdizm məhz erməni avantüraları naminədir. Əslində, bu, nəinki BMT-nin, ümumən dünyanın hüquq sistemi adına çox böyük rəzalətdir.

***

BƏM-in qərarında, eyni zamanda, vurğulanır ki, Azərbaycan sentyabrın 19-dan sonra Qarabağda qalan və ya geri qayıdan şəxslərə güc tətbiq etməkdən və hədə-qorxu gəlməkdən çəkinməlidir. Bütün dünya Qarabağı tərk edən ermənilərin hansı böyük qayğı ilə yola salındığının şahidi oldu. Üstəlik, Ermənistanın bəzi media orqanlarında yayılmış görüntülərdə onların özləri də ölkəmizin müxtəlif qurumların təmsilçilərinin bölgədə qalıb yaşamaqla bağlı çağırış etdiklərini bildirirlər. Yəni, məhkəmənin qərarına belə bir müddəanın daxil edilməsinə nə hacət? Amma "ehtiyac" var. Bu müddəanın mövcudluğu düşünməyə əsas verir ki, guya Azərbaycan hədə-qorxu gəlirmiş və buna görə məhkəmə qərar çıxararaq vandallığı dayandırmaq məcburiyyətini təsbiq edib.

Ermənistan hakimiyyəti gələcəkdə iddia edə bilər ki, əgər BƏM-in mövqeyi olmasaydı, Qarabağda soyqırımı reallaşdırıla bilərdi. Hərçənd, avantüristlərin beyni o qədər qızıb ki, onlar daha çox Azərbaycanın məhkəmə qərarlarına icra etmədiyi məntiqi ilə manipulyasiyanı üstün tuturlar. Ötən müddət göstərir ki, onların bu sayaq yanaşmaları yekunda özləri leyihə olan istənilən prosesi də nəticəsizliyə məhkum edir. Hələ bir çox hallarda erməni iqtidarı və siyasi dairələri beynəlxalq strukturları fəaliyyətsizlikdə də günahlandırırlar.

***

Daha bir məqama diqqət yetirək. BƏM Azərbaycanı İnsan Hüquqları üzrə Beynəlxalq Konvensiya üzrə üzərinə götürdüyü öhdəliklərinin bir hissəsi olaraq qeydiyyat, şəxsiyyət və şəxsi mülkiyyət sənədlərini, habelə qeydiyyat kitablarını saxlamağa və mühafizə etməyə, onları özünün inzibati və qanunvericilik təcrübəsi üçün əsas kimi qəbul etməyə mükəlləf edir. İlk baxışdan, burada da hər hansı xüsusi məqam yoxdur. Ölkəmiz onsuz da Xankəndidə, eləcə də Qarabağ İqtisadi Rayonunun digər hissələrində yaşamış ermənilər barədəki, eləcə də onların hansısa mülkiyyətə bağlılığını təsdiqləyən sənədləri saxlayacaq ki, mövcud əsasda işlər görsün. Daha doğrusu, həmin sənədlərin özünün bölgə ilə bağlı yurisdiksiyasında yer almasını təmin etmək, mövcud istiqamətdə səliqə-sahman yaratmaq başlıca şərtdir. Ancaq başqa məqam da var. Hazırda BMT-nin məsələyə dair öhdəlik müəyyənləşdirməsi Azərbaycan qarşısında separatçı rejimdəki sənədləri saxlamaq məcburiyyətini də qoyur. Bu isə həmin rejimin leqallaşdırılmasına dəstək məqsədinə hesablanıb.

Əslində, BMT-nin Beynəlxalq Ədalət Məhkəməsinin qərarında Azərbaycana qarşı öhdəlik kimi nəzərdə tutulan müddəaların hamısı mübahisəyə açıqdır. Konkret haqqında söz açdığımız sonuncu məsələyə gəlincə, Qarabağ Azərbaycanın tərkib hissəsidir. Burada hansısa saxta quruluş sənəd tərtib edibsə, kimlər üçünsə mülkiyyət hüququ müəyyənləşdiribsə, kimlərəsə vətəndaşlıq veribsə, deməli qanunsuzluq var. Qanunsuzluq isə indiki halda həm də beynəlxalq hüququn pozulması deməkdir. Acınacaqlı hal budur ki, BƏM-də öz yanaşmasındakı bəzi stereotiplərlə bu məqamı deyil, erməni separatizmi və avantürizmi üçün hansısa izlər saxlamağın qayğısına qalır.

Sonda onu da deyək ki, Avropanın, ümumilikdə dünyanın siyasi sistemi kimi, hüquq sisteminin də erməni avantürizminin əsirinə çevrilməsi ilə bağlı təsəvvür möhkəmlənməkdədir. Hesab edirik ki, BMT-nin Beynəlxalq Ədalət Məhkəməsinin qərarındakı müəyyən motivlər də məhz bunun nəticəsidir. Əlbəttə, mübahisələndirilməyə hər zaman açıq olan, qatı siyasi mahiyyət daşıyan belə qərarlar Azərbaycanı tutduğu ədalətli yoldan döndərmək iqtidarında deyil.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Paşinyan "sülhpərvər" cildində...

(əvvəli 1-ci səhifədə)

Paşinyan bunun obyektiv səbəblərinin olduğunu diqqətə çatdırıb. Deyib ki, buna çoxillik münaqişə, minlərlə qurban, onlarla əsir (?) və digər amillər səbəb olur.

ATƏT PA-nın prezidenti Pia Kauma salamlama nitqində rəhbərlik etdiyi qurumun Bakı–İrəvan münasibətlərinin normallaşdırılması üzrə danışıqların davamını dəstəklədiyini bildirib: "Biz düşünürük ki, sülh sazişinin imzalanması üçün imkanlar var. ATƏT PA bir təşkilat olaraq tərəfləri danışıqları davam etdirməyə və razılığa gəlmək üçün yeni imkanlar axtarmağa çağırır. Bu region, o cümlədən iqtisadi baxımdan çox vacib olduğundan, burada imkanlar çoxdur, lakin sülh və təhlükəsizlik zəruridir".

Açılış mərasimində Hayastan parlamentinin sədri Alen Simonyan da çıxış edib. Simonyan bildirib ki, Azərbaycanla sülhün bərqərar olması üçün tarixi imkan var. O qeyd edib ki, İrəvan region ölkələrinin sülh içində yaşamasına imkan verəcək formulu tapmağa çalışır.

Bundan sonra ATƏT məkanında təhlükəsizlik mövzularına həsr olunan ilk tematik müzakirə başlayıb.

Qeyd edək ki, Ermənistan parlamenti noyabrın 17-də məlumat yayaraq sessiyada 50-yə yaxın ölkədən 300 nümayəndənin iştirak edəcəyini açıqlayıb. Azərbaycan, Türkiyə və Rusiya nümayəndə heyətləri tədbirdə iştirak etməkdən imtina edib.

Ermənistan parlamentinin xarici əlaqələr komissiyasının sədri Sarkis Xandanyan jurnalistlərə müsahibəsində regionun üç ölkəsinin İrəvanda keçirilən tədbirdə iştirakdan imtinasına ayrı-ayrılıqda münasibət bildirib. Deyib ki, Azərbaycan nümayəndə heyətinin üzvləri Ermənistanda təhlükəsizliklərinin təmin olunması ilə bağlı müxtəlif formatlarda bir neçə dəfə məsələ qaldırıblar. "Ermənistan parlamenti ATƏT PA-nın sədrinə və assambleyaya cavab verib və bildirib ki, İrəvan deputatların təhlükəsizliyini təmin etməyə hazırdır. Bizim təhlükəsizlik verdiyimizə dair protokollar var, lakin gördüyünüz kimi, onlar burada deyillər. Bu onların qərarıdır", – deyə o vurğulayıb. Qeyd edib ki, Azərbaycan nümayəndələrinin ötən ilin fevralında İrəvanda keçirilən AVRONEST Parlament Assambleyasının komitə iclasında iştirakı presedent olub."



S.Xandanyan əlavə edib ki, noyabrın 17-də Rusiya nümayəndə heyəti Ermənistan parlamentinin sədrinə müraciət edib və iştirak etməyəcəyini bildirib: "Ölkələrin parlamentlərinə dəvət göndərən Ermənistan parlamenti olmayıb. Bununla ATƏT məşğul olub. Türkiyəyə gəldikdə isə, bizim bu barədə informasiyamız yoxdur".

Ancaq Ermənistan parlamentinin komissiya sədrinin nə deməsindən asılı olmayaraq, fakt faktlığında qalır. Yəni, Ermənistanda Azərbaycana münasibətdə düşmənçilik və nifrət hissi hökm sürür, anti-Azərbaycan təbliğatı və azərbaycanofobiya özünü qabarıq şəkildə büruzə verir. Belə bir əhval-ruhiyyənin hökm sürdüyü ölkəyə Azərbaycan nümayəndə heyətinin getməməsi tamamilə təbii qarşılanmalıdır. Azərbaycanın ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri Azay Quliyev bununla bağlı açıqlaması maraq doğurur. A.Quliyev bildirib ki, Milli Məclisin ATƏT PA-dakı nümayəndə heyəti təşkilatın noyabrın 18-20-də İrəvan şəhərində keçiriləcək payız sessiyasında iştirak etməyəcəyi barədə ATƏT PA-da təmsil olunan nümayəndə heyətlərinə və qurumun beynəlxalq katibliyinə məktub ünvanlayıb. Məktubda Azərbaycan tərəfinin Ermənistanda ölkəmizə qarşı hökm sürən düşmənçilik və nifrət hissindən, özünü qabarıq şəkildə büruzə verən anti-Azərbaycan təbliğatı və azərbaycanofobiyadan narahatlıq ifadə olunub.

Qeyd edilib ki, cari ilin aprelin 14-də keçirilən beynəlxalq idman tədbiri zamanı bu ölkənin baş naziri Nikol Paşinyanın gözləri önündə Azərbaycan bayrağına qarşı edilən hörmətsizlik, Ermənistan parlamentinin üzvləri, jurnalistlər, blogerlər tərəfindən bu cinayət əməlini törədən şəxsin dərhal azad edilməsi ilə bağlı mitinqin təşkili Azərbaycan ictimaiyyətində haqlı narazılıq yaradıb. Bildirilib ki, bu cinayəti törətmiş şəxsin qısa müddət ərzində sərbəst buraxılması və "milli qəhrəman" elan edilməsi Ermənistan ictimaiyyətində ölkəmizə qarşı güclənən nifrət mühitinin nə qədər təhlükəli həddə olduğundan xəbər verir. Beynəlxalq forumlarda bu cür əməlləri törədənlərin isə cəzasız qalması, qanunsuz olaraq həbsdə saxlanılan Azərbaycan hərbçilərinə qarşı qeyri-insani rəftar, sosial şəbəkələrdə azərbaycanlılara qarşı zorakılıq tədbirlərinin görülməsinə dair açıq çağırışlar Ermənistan dövləti tərəfindən dəstəklənən sistemli nifrət siyasətinin digər bariz nümunələrindəndir.

Məktubda daha sonra deyilir: "Azərbaycan nümayəndə heyətinin iştirak edə bilmədiyi payız sessiyasında ölkəmizlə bağlı hər hansı məsələnin müzakirəsi doğru olmazdı. Parlament Assambleyası ATƏT-in 57 iştirakçı dövləti arasında dialoq və əməkdaşlıq üçün forumdur və bir nümayəndə heyətinin qurumun sessiyasında əsaslandırılmış səbəblərdən iştirak edə bilməməsi, həmin ölkə ilə bağlı hər hansı məsələnin konstruktiv və balanslaşdırılmış şəkildə müzakirəsini imkansız edir. Azərbaycanın iştirak edə bilmədiyi sessiyada birtərəfli müzakirələrin nəticəsi faydasız və qəbuledilməz olmaqla yanaşı, ATƏT PA-nın Cənubi Qafqaz regionunda sülhü və barışığı təşviq etmək istiqamətində yürütdüyü parlament diplomatiyasına mənfi təsir göstərəcəkdir".

ATƏT PA-dakı nümayəndə heyətimiz birmənalı bəyan edib ki, qurumun iştirak edə bilmədikləri payız sessiyası çərçivəsində Azərbaycanın maraqlarına zidd qəbul ediləcək istənilən qərar və ya tövsiyə etibarsız hesab olunacaq.

Qeyd edək ki, ATƏT PA-nın nizamnaməsinə əsasən, payız sessiyasında sənədlər qəbul edilmir. Bu, daha çox müzakirə platformasıdır və 4 tematik müzakirə aparılacaq.

Onu da bildirək ki, Ermənistan hökuməti dünən uzun müddətdir haqqında söhbət açdığı "Sülhün kəsişməsi" layihəsini videoçarxda təqdim edib. Baş nazirin "Facebook" hesabında yerləşdirilən videoçarxda layihənin sülh gündəliyinin mühüm hissəsi kimi hazırlandığı qeyd olunub. Bildirilib ki, layihənin əsas mənası Ermənistan, Türkiyə, Azərbaycan və İran arasında avtomobil və dəmir yollarının, boru kəmərlərinin, kabellərin, elektrik xətlərinin təmiri, tikintisi və istismarı ilə kommunikasiyaların inkişafıdır. "Otuz ildir ki, Ermənistanın cənubundan və şimalından keçən dəmir yolları regional miqyasda işləmir, şərqlə qərbi birləşdirən bir çox magistral yollar da fəaliyyətsizdir, halbuki bu yolların yenidən işə salınması Ermənistanı Xəzər dənizindən Aralıq dənizinə həm dəmir yolu, həm də avtomobil yolu ilə birləşdirən qısa və səmərəli marşrut olacaq", – deyə Ermənistan hökuməti bildirib.

Videoçarxda qeyd olunub ki, həmin dəmir yolu və avtomobil kommunikasiyaları körfəzi Qara dənizə, o cümlədən Gürcüstan limanlarına birləşdirən təsirli yol ola bilər: "Bu proqram regionumuzun bütün ölkələri üçün böyük fayda verəcək və biz hökumətlərin və özəl investorların diqqətini bu fürsətə cəlb etmək istəyirik".

Güman etmək olar ki, Paşinyan hökuməti layihənin videoçarx formasında təqdimatını məqsədli şəkildə ATƏT PA-nın sessiyasının keçirildiyi gündə açıqlayıb. Bunu başqa cür izah etmək çətindir. Əks halda Paşinyan iqtidarının həftənin digər günləri içindən nə üçün qeyri-iş gününü seçdiyi anlaşılan deyil. Ancaq Paşinyan hər nə qədər sülhpərvər cildində görünməyə çalışsa da, onun hökumətinin iki aydan artıqdır Azərbaycanın təkliflərinə cavab verməyi ortadadır. Nikol isə bu gedişlərlə beynəlxalq ictimaiyyəti müəyyən müddətə aldada bilər...

***Səxavət HƏMİD***
***XQ***

## Ekspert rəyi



**Azər HƏSRƏT,**
**siyasi şərhçi**

– Ermənistan paytaxtı İrəvan, ümumiyyətlə isə Ermənistanın özü beynəlxalq tədbirlər üçün elə də etibarlı platforma hesab edilmir. Yəni, müxtəlif zamanlarda orada keçirilən bənzər tədbirlərdə əksər ölkələr ya iştirak etməyə meyl göstərmirlər, ya da necə deyərlər, candərdi iştirak edirlər.

ATƏT PA-nın sessiyasında Azərbaycan, Türkiyə və Rusiyanın iştirakdan imtina etməsi də bu qəbildəndir. Yəni, Azərbaycan və Türkiyə, eləcə də Rusiya üçün İrəvanda keçirilən tədbirdə iştirak elə də maraqlı deyil. O səbəbdən ki, Ermənistanın Azərbaycan və Türkiyə ilə münasibətləri bəllidir, Rusiyaya isə elə davranış sərgiləyib ki, Moskva artıq İrəvana güvənmir, etimad göstərmir. Onunla bir müstəvi üzərində olmağa meyl etmir. Yəni, Rusiya üçün Ermənistan xərclənmiş və tükənmiş bir tərəfdaşdır. Rusiya bundan sonra Ermənistana etimad göstərmir, etibar etmir. Buna görə də sessiyada iştirakdan imtina edir. Azərbaycanla Türkiyə isə təbii ki, bu məsələdə özünəməxsus yanaşma sərgiləyir. Əslində bu da ən doğru yanaşmadır.

# Dünyanı mat qoyan zəfər

*İyirmi il bundan əvvəl Prezident kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma bir nömrəli vəzifə qoymuşdum ki, Azərbaycan Bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın. Hər gün, hər saat biz bu müqəddəs məqsədə doğru gedirdik. Hər gün biz bu müqəddəs anı yaxınlaşdırırdıq və dəfələrlə deyirdim ki, hər birimiz, hərə öz yerində öz işi ilə bu günü yaxınlaşdırmalıdır.*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**



***Azərbaycan bu günlərdə tarixinin ən şərəfli, ən qürurverici günlərindən birini – Zəfər Gününü yaşayır. İgid Azərbaycan oğullarının canı-qanı bahasına əldə edilən bu Qələbə tariximizin, özü də təkcə bizim tarixin yox, XXI əsr tarixinin səhifələrinə qızıl hərflərlə yazıldı.***

Sonuncu cümləmizdə heç bir mübaliğə yoxdur. Əvvəla, ona görə ki, 44 günlük Vətən müharibəsi müasir dünya tarixinə separatçılıq, etnik təmizləmə, dinc əhaliyə qarşı soyqırımı, işğalçılıq, tarixi və milli mədəniyyət abidələrinin barbarcasına dağıdılması və s. bu kimi antiinsani əməllərə və başəriyyət əleyhinə cinayətlərə qarşı ən uğurlu əməliyyatlardan biri kimi düşdü. İkincisi, şanlı Azərbaycan Silahlı Qüvvələrinin 44 günlük müharibədə qazandığı möhtəşəm Qələbə bütün dünyada hərbi bir arada idi. Bu konsolidasiya və birlik isə Prezidentimizin, Müzəffər Ali Baş Komandanımızın uzaqgörənliklə, dahiyanə şəkildə həyata keçirdiyi uğurlu siyasətin bəhrəsi idi.

Bu siyasət təkcə Şuşa zəfəri ilə, digər torpaqlarımızın işğaldan azad olunması ilə bitmədi. Bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında biz bu il Zəfər gününü daha böyük coşqu ilə, daha böyük qürurla qeyd edirik. Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, xalqımızın qürur mənbəyinə çevrildi. Bütün dünyaya gü-



təşəm Qələbə bütün dünyada hərbi dərsliklərdə yeni paraqraf açdı. Azərbaycan əsgərinin igidliyi, əzmi, iradəsi, cəsurluğu və qəhrəmanlığı, Azərbaycan zabitinin qeyri-adi döyüş bacarığı artıq üç ildir ki, dünyanın aparıcı hərbi institutları və elmi araşdırma mərkəzləri tərəfindən təhlil edilib öyrənilir. Ölkəmizin qələbəsi müasir döyüş əməliyyatlarına baxışları kökündən dəyişdirdi. Təkcə Şuşa əməliyyatında göstərdiyimiz hünər dünya mətbuatında fantastik bir hadisə kimi qiymətləndirilməmişdimi? İndi hər yerdə Azərbaycan Ordusunun təcrübəsi, qələbəmizin sirri, "resepti" öyrənilir. Necə də qürurvericidir!

Bu "resept" isə çox sadədir. Burada bir neçə vacib məqam var. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin qətiyyəti və sarsılmaz iradəsi, Azərbaycan döyüşçüsünün misilsiz qəhrəmanlığı və mətinliyi, xalqın öz dövlətinin və Prezidentinin ətrafında yumruq kimi birləşib bir olması, zərgər dəqiqliyi ilə ölçülüb-biçilən və uğurla yürüdülən dövlət siyasəti... Bütün bu amillər 44 gündə də, ondan sonra da baycanın müqəddəs üçrəngli bayrağı bir zamanlar düşmən tapdağı altında, lakin indi öz sahibində olan bütün torpaqlarımızda dalğalanır. Sentyabrın 19-20-də böyük uğurla həyata keçirilən antiterror əməliyyatı azı bir əsrdir davam edən, ölkəmizin taleyində, tarixində qanlı izlər buraxan Qarabağ məsələsinə birdəfəlik nöqtə qoydu. Nəticədə illərdir ən böyük yaramız olan Xocalımıza qovuşduq. Ermənistan rüsvayçı məğlubiyyətini bütün dünya ictimaiyyəti qarşısında bir daha etiraf etməyə məcbur edildi. Bayrağımız indi Əsgəranda, Xocavənddə, Xankəndidə..., hər kəndimizdə, hər obamızda dalğalanır! Yuxu deyil, reallıqdır! Bu reallığı yaradan əbədi minnətdar olmalı olduğumuz Müzəffər Ali Baş Komandanımızdır, onun dahiyanə strategiyasıdır, əbədiyyən borclu olduğumuz müqəddəs şəhidlərimizdir, Azərbaycan əsgəridir, onun misilsiz qəhrəmanlığıdır, xalqımızın birliyi və iradəsidir!

Azərbaycan xalqının əzmi, dövlətimizin iqtisadi gücü, müasir standartlara cavab verən Ordumuz, qəhrəman əsgərlərimiz və bütün bunların başında cümüzü göstərdiyimiz haqlı savaşımızdan üzüağ çıxdıq. "Qarabağ Azərbaycandır!" reallığını göstərdik.

Bu, qədirbilən Azərbaycan xalqının öz əbədiyaşar lideri, mənəvi atası, Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə, "Heydər Əliyev İli"nə ən böyük hədiyyəsidir! Bu dahi azərbaycanlının ruhu indi şaddır.

"Gün o gün olsun..." Bu sözlərlə başlayan cümləni o qədər çox eşitmişdik ki... Bəli, həmin o gün məhz bu gündür. İndi ərazi bütövlüyümüz tam təmin olunub. Azərbaycan xalqı ərazi bütövlüyünü, bununla da ləyaqətini bərpa edib! İndi bizimlə hesablaşırlar, bizə hörmət və qibtə edirlər.

Böyük qələbəmiz uğrunda canından keçmiş bütün şəhidlərimizi bir daha rəhmət və ehtiramla anır, ruhları qarşısında baş əyirik!

Daha böyük qələbələrə layiq Azərbaycan, müqəddəs Zəfər günün mübarək!

***Tərlan NÜSRƏTOV,***
***Cəbrayıl Rayon Məhkəməsinin sədri***

**70-80-ci illərdə Gəncədən, elə Bakının özündən keçmiş ittifaqın şəhərlərinə kimin yolu düşürdüsə, çantasında mütləq "Çinar" şokaladı olardı və onu çox qiymətli bir hədiyyə kimi aparardı, qürurlanardı... Gəncə Qənnadı Fabrikinin istehsal etdiyi bu konfetlər brendə çevrilmişdi. "Çinar"a o qədər tələbat var idi ki, bəzən heç Gəncənin özündə tapılmaz, bəzən də tanışlıqla, necə deyərlər, əl altından satılardı. Halbuki o illərdə Gəncə Qənnadı Fabrikinin işə başlaması ilə respublikada şokolad istehsalı da artmışdı. O zaman müəssisənin illik istehsal gücü 36 min tona çatırdı. Amma daha çox "Çinar" şokoladları sayılıb-seçilirdi, çay süfrələrinin, sovqatların bəzəyi idi. Məlumat üçün bildirək ki, 1982-ci ildə respublikada istehsal olunan 86 min ton qənnadı məmulatının, təxminən, yarısını Gəncə fabriki istehsal edirdi. Məhsulun bir hissəsi ittifaq respublikalarına göndərilirdi və "Çinar" birinci yerdə gedirdi.**

# Ulu öndərin SSRİ brendinə çevirdiyi "Çinar"ın 50 yaşı tamam olur



O illər Gəncənin ən uğurlu vaxtları idi və Ulu öndər Heydər Əliyevin təşəbbüsü və bilavasitə köməyi ilə şəhərdə bir-birinin ardınca nəhəng sənaye müəssisələri tikilib istifadəyə verilirdi. Adətən bu müəssisələrin həm təməlqoyma mərasimlərində, həm də açılışlarında dahi rəhbər özü şəxsən iştirak edirdi.

1973-cü ildə, yəni düz 50 il qabaq Gəncə Qənnadı Fabrikinin də açılışında Heydər Əliyev iştirak etdi, yaradılan şəraitlə yaxından tanış oldu, kollektivin üzvləri ilə görüşdü, istehsal xəttlərinə baxdı, öz tövsiyələrini verdi. Ulu öndər dedi ki, yaxşı olar şəhərdə Şərq şirniyyatı hazırlansın, adı da Gəncə ilə bağlı olsun. Gəncənin "çinarlar şəhəri" olduğu nəzərə alınaraq istehsal ediləcək şokoladın adının da "Çinar" olması məqbul hesab edildi.

Bir müddətdən sonra onun istehsalına başlanıldı və "Çinar"ın şöhrəti bütün SSRİ-ni bürüdü. O vaxt Azərbaycan SSR və eyni zamanda, SSRİ Yeyinti Sənayesi Nazirliyi tərəfindən təsdiq olunmuş reseptə əsasən istehsalına başlanılan "Çinar" 250, 300 və 500 qramlıq qutularda istehsal olunurdu. Özünün qeyri-adi dadı ilə seçilən bu şirniyyat məhsulunun qutuları üzərində Çinar ağacının şəkli olurdu. Bu, Samuxun Kolayır kəndinə gedən yoldan azacıq aralıda ucalan və 1500 ildən çox yaşı olan əzəmətli Düldül çinarının şəkli idi...

Məlum səbəblərdən istehsalını dayandıran müəssisə müəyyən fasilələrdən sonra yenidən "Çinar"ın istehsalına başladı. Əslində onun hüquqi istehsalçısı Gəncə fabriki olduğu üçün başqa bir istehsalçı müəssisə o adda şokolad istehsal edə bilməz. Hətta bir ara respublikadakı şirkətlərdən biri Gəncə Qənnadı Fabrikindəki boşluqdan istifadə edərək "Çinar" konfetləri buraxırdı. Fabrik haqlı olaraq onu məhkəməyə verdi və istehsalı dayandırdı.

Gəncədə bu gün də "Çinar" istehsal olunur. Lakin hələlik istehsalın həcmi çox azdır. Digər tərəfdən deyirlər ki, keyfiyyət, dad-tərəvət də əvvəlki deyil. Müəssisənin kiçik kollektivi isə onun tezliklə əvvəlki şöhrətini bərpa edəcəyinə əmindir.

Nə deyirik, Ulu öndərin SSRİ-nin brendinə çevirdiyi bir məhsulun bu gün də yaşadılması varsa və ona yenə tələbat olursa, demək "Çinar" hələ çox illər nəinki bizim, həm də xarici ölkələrdəki evlərin süfrəsini bəzəyəcək...

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Gəncə**

# Almaniyada Azərbaycanlı Həkimlərin II Forumu

**"Heydər Əliyev İli" çərçivəsində Berlin şəhərindəki Azərbaycan Mədəniyyət Mərkəzində Almaniyada Azərbaycanlı Həkimlərin II Forumu öz işinə başlayıb. Forumun işində Almaniyanın 70-ə yaxın şəhərindən gələn tibb mütəxəssisləri və qonaqlar iştirak ediblər.**



Tədbir Diaspora İş üzrə Dövlət Komitəsinin Ümummilli liderin anadan olmasının 100 illiyi ilə bağlı hazırladığı "Heydər Əliyev və Azərbaycan diasporu" sənədli filmi və şanlı Zəfərimizi əks etdirən "Xalqa verilən söz həqiqətə çevrildi" videoçarxı nümayiş olunub.

Azərbaycanın Almaniyadakı fövqəladə və səlahiyyətli səfiri Nəsimi Ağayev Almaniyada yaşayan azərbaycanlıların birliyinin uğurlarından danışıb.

Diaspora İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov görkəmli dövlət xadimi Heydər Əliyevin azərbaycanlıların xaricdə təhsil almasına xüsusi diqqət yetirdiyini xatırladıb. Hazırda xaricdə fəaliyyət göstərən Azərbaycan icmalarının Prezident İlham Əliyevin və Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqətində olduğunu vurğulayan komitə sədri forumun işini və Almaniyadakı Azərbaycan icmasının fəaliyyətini yüksək qiymətləndirib.

Xatırladaq ki, Diaspora İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Almaniyada Azərbaycanlı Həkimlərin I Forumu 2022-ci il mayın 5-də Köln şəhərində təşkil edilib.

***XQ***

# Salonikidə Ümummilli liderin 100 illik yubileyi qeyd edilib

**AZƏRTAC-ın və Diaspora İş üzrə Dövlət Komitəsinin dəstəyi, "QALA" Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyətinin təşkilatçılığı ilə Yunanıstanın Saloniki şəhərində Ulu öndər Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunmuş fotosərginin açılış mərasimi keçirilib.**



"QALA" Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Rəşid Məmmədov, ölkəmizin Yunanıstandakı müvəqqəti işlər vəkili Qafqaz Aslansoy, Türkiyənin Salonikidəki baş konsulu Serkan Gedik çıxış edərək Ümummilli liderin xatirəsinin Yunanıstanda da ehtiramla anıldığını vurğulayıblar, onun dövlətimizin qorunmasında və möhkəmlənməsində misilsiz xidmətlərindən bəhs ediblər.

Daha sonra iştirakçılar fotosərgi ilə tanış olublar.

***XQ***

# Sülh və regional təhlükəsizlik başqa yerdə deyil, bölgənin özündədir

**“Avropa İttifaqının Fransa kimi bəzi üzv ölkələri Ermənistanın hərbiləşdirilməsi proqramına başlayıblar”.**



Bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Brüsseldə jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, bu hərbiləşdirmə proqramları doğru deyil: “Birincisi, istənilən hərbiləşdirmə proqramının yararlı olduğunu sanmırıq. Ermənistanın militarizasiya proqramına ehtiyacı yoxdur. Onun sülh proqramına ehtiyacı var”.

H.Hacıyev, həmçinin bəzi Qərb dairələrindəki Azərbaycanofobiya və islamofobiya haqqında da danışıb: “Bu, həm də Aİ-nin regional resurslarda ambisiyaları və maraqları üçün çox da faydalı deyil. Avropa Şurasının bu yaxınlarda Azərbaycanla bağlı gərəksiz tənqidləri ehtiva edən lazımsız bəyanatını da nəzərə almışıq... Azərbaycan əraziləri işğal altında olanda Avropa qurumları heç vaxt Azərbaycana qarşı ədalətli olmayıblar”.

H.Hacıyev qeyd edib ki, Avropanın müvafiq qurumları həllin parçası olmalıdırlar: “Biz Fransa kimi üzv ölkələrə həmişə tövsiyə etmişik ki, birincisi, Azərbaycan ərazisində separatizmi dəstəkləməsinlər. İkincisi, Ermənistanda revanşizmi dəstəkləməklə bağlı lazımsız mesajlar verməyin, həm də regionumuzda geosiyasi lazımsız oyunları irəli sürməkdən əl çəkin. Təəssüf ki, bunlar faktlardır. Biz inanırıq ki, bu, tarixi fürsət və tarixi təkandır və müvafiq Avropa qurumları da sosial böhran bölgəsində sülh gündəmini irəli sürmək üçün problemin deyil, həllin bir hissəsi olmalıdır”.

Prezidentin köməkçisinin sözlərinə görə, Azərbaycanın gündəliyində Bakı ilə İrəvan arasında sülh və ikitərəfli münasibətlərin normallaşması məsələsi var: “Ermənistanın qanunsuz rejimi hazırda tərk-silah edilib və Azərbaycan ərazisindən çıxarılıb. Bu, o deməkdir ki, Ermənistanla Azərbaycan arasında sülh razılaşması bağlamaq üçün heç bir əngəl yoxdur. Biz hesab edirik ki, bu, iki ölkə arasında ədavət və düşmənçilik fəslini dəyişdirmək və Azərbaycanın Ermənistan tərəfinə təklif etdiyi beş fundamental prinsip əsasında davamlı sülh yaratmaq üçün tarixi fürsətdir. Azərbaycan Avrasiya xəritəsində ən uzanmış münaqişələrdən birinin həlli üçün model yaradıb”.

O xatırladıb ki, ATƏT Qarabağ məsələsini həll edə bilməyib: “Minsk qrupu uğursuzluğa düçar olub: Minsk qrupunun həmsədrliyi qurumu uğursuz olub, çünki bu qurumun missiyası Ermənistanın Azərbaycana qarşı işğal siyasətini qorumaq və davam etdirmək olub”.

H.Hacıyevin fikrincə, işğal və ədalətsizlik dönəmi artıq geridə qalıb: “Ona görə də Azərbaycanın gündəliyində Bakı ilə İrəvan arasında sülh və ikitərəfli münasibətlərin normallaşması məsələsi var. Ancaq istənilən sülh öhdəliyi hər iki tərəfin öz üzərinə düşən vəzifəni yerinə yetirməsini tələb edir və Ermənistan da öz rolunu oynamalı, pozitivlik və xoşməramlılıq nümayiş etdirməlidir. Biz artıq Ermənistan tərəfinə sülh müqaviləsinin yenidən işlənmiş beşinci variantını təqdim etmişik, amma iki aydan çox vaxt keçib ki, onlar hələ də cavab vermirlər. Hazırda regionda yeni reallıqlar yaranıb. Bu yeni reallıqlar qanunilik və legitimlik üzərinə qurulub”.

O qeyd edib ki, Bakı iki ölkə arasında qarşılıqlı təması dəstəkləyir: “Düşünürəm ki, biz sülh razılaşmasına gəlməliyik. Digər tərəfdaşlar da bu razılaşmanı dəstəkləyə bilər. Əvvəla, sülh və regional təhlükəsizlik Brüsseldə, Parisdə, Vaşinqtonda, Moskvada və ya başqa yerdə deyil. Sülh bölgənin özündədir”.

*XQ*

# Nazirlər regional vəziyyəti müzakirə ediblər

**Noyabrın 18-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahian arasında telefon danışığı olub.**





Nazirlər ikitərəfli və regional gündəlikdə duran, həlli zəruri olan məsələləri, eləcə də cari regional vəziyyəti müzakirə ediblər.

Bölgədə regional formatlar çərçivəsində aparılan işin vacibliyi, bu istiqamətdə səylərin artırılmasının əhəmiyyəti qeyd edilib, bu prosesin regionda sülh və sabitliyə töhfə verəcəyi vurğulanıb.

Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

*XQ*

**Replika**

# İkili standartlı UNESCO





**UNESCO missiyası Azərbaycanın işğaldan azad olunan Qarabağ bölgəsinə səfər etmək üçün müraciət edib.**



Rəsmi Bakı buna razılıq verib, lakin Ağdamdan keçməklə Xankəndiyə getməyi və səfər zamanı Ağdamdakı dağıntıları da qeydə almağı təklif edib.

Qarşı tərəf isə bununla razılaşmayıb və birbaşa Xankəndiyə getmək, oradakı erməni abidələrinin vəziyyətini görmək istədiklərini bildiriblər.

Qurumun bu mövqeyindən aydın görünür ki, ermənilərin 30 il ərzində Qarabağda törətdikləri vandalizm faktları UNESCO-nu maraqlandırmır. Beləliklə, UNESCO missiyası Ağdamı görməzdən gələrək Xankəndiyə səfər üçün israr etməklə öz ikili standartlarını növbəti dəfə aydın şəkildə ortaya qoyurlar.

*XQ*

# Qərbi Azərbaycan İcmasının Ermənistana qarşı heç bir ərazi iddiası yoxdur

**Qərbi Azərbaycan İcması Ermənistanın baş naziri Nikol Paşinyanın ATƏT Parlament Assambleyasının İrəvanda keçirilən iclasındakı çıxışında Azərbaycana qarşı növbəti dəfə böhtan atmasını və Qərbi Azərbaycan İcmasının fəaliyyətini təhrif etməsini şərh edib.**

"Qərbi Azərbaycan" ifadəsinə gəlincə qeyd edək ki, bu, tarixi və coğrafi həqiqətə əsaslanan bir termindir və İcmamızın ondan istifadə etməsi beynəlxalq insan hüquqları konvensiyaları ilə tanınan özünü-identifikasiya hüququna əsaslanır.

Bir daha vurğulayırıq ki, Qərbi Azərbaycan İcmasının Ermənistana qarşı heç bir ərazi iddiası yoxdur və sülhə, barışığa N.Paşinyanın gəlişigözəl sözləri ilə, yalandan özünə “demokrat” imici yaratmaqla deyil, səmimi addımlarla nail olmaq olar. Bu xüsusda, N.Paşinyan hökumətindən azərbaycanlıların Ermənistanda öz dədə-baba yurdlarına qayıdış hüququnu tanımasını və Qərbi azərbaycanlılarla tarixi barışığın əldə edilməsi üçün İcma ilə dialoqa başlamasını gözləyirik.

*XQ*

**Beynəlxalq İnkişaf Agentliyi (USAID) demokratik inkişaf yolu tutmuş dövlətlərə ABŞ-ın yardımını çatdırmalı olan mexanizm kimi yaradılıb. Nizamnaməsində qeyd edilir ki, o, xarici ölkələri mülki-humanitar yardımlarla təmin edir. Bundan əlavə, bu qurum demokratik inkişafı stimullaşdıran proqramlar icra edir.**

# USAİD ABŞ-ın təxribat maşınıdır

*Müşfiq ƏLƏSGƏRLİ, media eksperti*



ABŞ Konqresinin “Xarici yardım aktı” proqramı çərçivəsində təsdiq etdiyi layihələri USAİD gerçəkləşdirir. Amma təcrübə göstərir ki, USAİD fəaliyyət göstərdiyi ölkələrdə humanitar kampaniyalarla, demokratik inkişafı ehtiva edən proqramlarla deyil, yaratdığı xaos və dağıntılarla yadda qalır. Agentlik işlədiyi ölkələrdə siyasi proseslərə açıq müdaxilə etməsi, hakimiyyət çevrilişlərinə dəstək göstərməsi ilə məşhurdur. Yəni bu qurum ABŞ Dövlət Departamentinin və Mərkəzi Kəşfiyyat İdarəsinin tapşırıqlarının icraçısı rolunda çıxış edir. Bununla da ABŞ-ın hədəfində olan ölkələrə fəlakətlər gətirir.

Oktyabr ayında Gürcüstan Dövlət Təhlükəsizlik Xidməti USAİD-i ifşa edən rəsmi açıqlama yaydı. Onu Gürcüstanda inqilabi proseslərin planlaşdırılmasında ittiham etdi. Amma bu, USAİD-in adının hallandığı ilk qalmaqal deyil. Afrika, Asiya, Yaxın Şərq, Latın Amerikası və Şərqi Avropa dövlətlərində son 30 ildə gerçəkləşdirilən inqilabi proseslərdə, xaosun, qarşıdurmaların artmasında USAİD-in iştirakı mütləqdir. ABŞ siyasətçiləri özləri də qeyd edirlər ki, USAİD və onun partnyoru qismində çıxış edən Milli Demokratiya Fondu (NED) Mərkəzi Kəşfiyyat İdarəsinin (CIA) təxribat ruporudur. Agentlik yardım adı ilə müxtəlif ölkələrdə müxalif qrupları dəstəkləyərək cəmiyyətdə qarşıdurmanı gücləndirir.

Aydınlıq yaransın deyə, qeyd edək, USAİD-in “müxalif qrupları dəstəkləməsi” deyəndə, təkcə müxalifətdə olan siyasi təşkilatlar nəzərdə tutulmur. Milli düşüncəyə zidd olan, cəmiyyətin harmoniyasını pozan bütün marginal qrupların himayə edilməsində USAİD öz rolunu oynayır. Məsələn, agentlik Azərbaycanda “radikal feminizm”in təşkilatlandırılıb aktivləşdirilməsində birbaşa iştirak edir. “Radikal feministlər” isə ailə institutuna qarşı çıxır, qeyri-ənənəvi münasibətləri təbliğ edir, milli maraq anlayışını isə mənasız zehniyyət adlandırırlar. Radikal feministlərin 8 mart 2020-ci ildə Bakıda keçirdikləri aksiya zamanı hansı rüsvayçılıqlara yol verdiklərini hər kəs xatırlayır.

Amma “radikal feminizm”in yaratdığı problemlər bununla da bitmir. USAİD və digər Qərb institutları “Radikal feministlər”in ətrafında özlərinə bənzəyən qondarma “KİV” və “QHT-lər” şəbəkələri formalaşdırır. Onlar çevrə ilə siyasi proseslərə müdaxilələr edirlər. Məsələn, “radikal feministlər”in liderlərindən olan Nərmin Şahmarzadənin 2019-cu ildə qəfildən gündəmə çıxıb Milli Qəhrəman Mübariz İbrahimovu təhqir etməsi göstərdi ki, onlar bir deyil, bir neçə, müxtəlif təyinatlı mərkəzlərdən, qeyri-leqal qurumlardan da dəstək və sifariş alırlar.

Bu yöndə ən heyrətləndirici oyunlardan biri də 2020-ci ilin oktyabrında – Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan 44 günlük Vətən müharibəsi ərəfəsində üzə çıxdı. Belə ki, Ermənistanın baş naziri Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyan beynəlxalq ictimai rəyi çaşdırmaq üçün hələ 2018-ci ildən etibarən “Qadınlar sülh naminə” kampaniyasını elan etmiş, guya, Azərbaycanla sülh yaratmaq arzusunda olduğunu bildirmişdi. Həmin kampaniya 2019-cu ildə ABŞ Konqresinə də təqdim edildi. 2020-ci ildə Vətən müharibəsi başlayanda Akopyan bu kampaniyasını daha da genişlndirərək “anaların sülh uğrunda imzası” şousunu gerçəkləşdirdi.

Məsələ ondadır ki, Anna Akopyanın bu avanturist fəaliyyətini dəstəkləyənlər sırasında “azərbaycanlılar”ın da adı var idi. Həmin kampaniyanı imzalayanlar sırasında 74 nəfər “azərbaycanlı”nın imzası aşkar oldu ki, onların da əksəriyyəti “radikal feminizm”in təmsilçiləri idilər. Aşkar məsələdir ki, USAİD “radikal feminizmi” dəstəkləyib təşkilatlandırmaqla, ictimai-siyasi proseslərə müdaxilə etmək üçün mexanizm hazırlayır. 2022-ci ildə Azərbaycanda “Media haqqında qanun” qəbul edilərkən Milli Məclis qarşısında piket keçirildi. Sonradan bəli oldu ki, həmin piket “jurnalistlərin etiraz aksiyası kimi” təqdim edilsə də, orada yalnız 2 nəfər jurnalist iştirak edib. Qalanları “feminist fəallar” imiş. Siyasi şərhçilər deyirlər ki, USAİD nəinki marginal qruplarla, hətta zərurət duyduqda terror qrupları ilə də iş birliyinə girir. ABŞ siyasətini təmsil edərək, ortaya iddia qoyur.

USAİD özünün bütün bu əməllərini “demokratiyaya dəstək” adı altında gerçəkləşdirir. Başabəla agentlik ABŞ-ın siyasətinə boyun əyməyən dövlətlərin vətəndaş cəmiyyəti institutlarını “qrantlar vermək” adı ilə ələ alır. Reallıqda isə onları maddi vəsaitlə şirnikləşdirir, əvəzində, legitim hakimiyyətlərə qarşı ictimai etimadsızlıq göstərməyə sövq edir. Bu kontekstdə USAİD-in imkanları hədsiz dərəcədə genişdir. O, təqribən, 27 milyard dollar məbləğində büdcəyə malik olmaqla, dünyanın ən böyük yardım təşkilatıdır.

Təkcə 2023–2025-ci illərdə “müxtəlif ölkələrdə vətəndaş cəmiyyəti quruculuğuna dəstək” adı altında USAİD 9 milyard dollardan çox vəsait sərf edib. Beləliklə, çirkli fəaliyyətini “Vətəndaş cəmiyyətlərinin inkişafına töhfə” adı altında pərdələyir. Reallıqda isə siyasi proseslərə müdaxilə edir, cəmiyyətlərdə qarşıdurma yaratmağa çalışır. Gürcüstan DTX-nin açıqladığı son məlumat, bu baxımdan indiyədək bəlli faktlardan biri idi.

Faktlar sübut edir ki, ABŞ II Dünya müharibəsindən sonrakı 70 il ərzində Avropa məkanında, ümumilikdə, dünya miqyasında öz hegemonluğunu təmin etmək üçün bu mexanizmdən də faydalanıb. “Humanitar yardım göstərmək”, “demokratik inkişafı dəstəkləmək” adı ilə çoxsaylı “donor institutlar” və “QHT şəbəkələri” formalaşdırıb. ABŞ-ın hansısa regionda maraqları təhlükəyə düşəndə həmin “donor institutlar” və peyk “QHT şəbəkələri” aktivləşdirilib. Ərazisində fəaliyyət göstərdikləri milli hökumətlərə təzyiq göstərərək, onları güzəştlərə sövq ediblər. Belə proqramların işlək halda saxlanılması üçün ABŞ-da tam bir dövlət mexanizmi yaradılıb.

USAID, NED, “Marşall”, İREX və digər “beynəlxalq donorlar” məhz bu proqramın icraçıları olaraq meydana çıxarılıb. Onların çevrələrində QHT-lərdən, media orqanlarından ibarət şəbəkələr formalaşdırılıb. Ayrı-ayrı ölkələrdə yüzlərlə “milli QHT”lər var ki, öz fəaliyyətlərini istisnasız olaraq Vaşinqtonla koordinasiya edir, okeanın o tayından gələn tapşırıqları qeyd-şərtsiz yerinə yetirir.

Azərbaycan bu situasiya ilə total şəkildə ilk dəfə 2012-ci ildə – “Avroviziya” Mahnı Müsabiqəsi dövründə üzləşib. Daha sonra, ölkəmiz I Avropa Oyunları ərəfəsində “QHT şəbəkələri”nin hədəfinə çevrilib. Azərbaycanın adına uğur gətirən bütün hadisələr bu şəbəkələrin hücumuna məruz qalır. II Qarabağ müharibəsi dönəmində, 19 sentyabr antiterror əməliyyatları zamanında da ölkəmizə qarşı qarayaxma kampaniyaları aparan QHT və KİV-lər də məhz bu şəbəkələrin üzvləri idilər.

Son vaxtlar yenidən aktivləşən, heç bir əsas olmadan “Azərbaycanı etnik təmizləmədə”, “Ermənistan ərazisini işğal etməyə hazırlaşmaqda” ittiham edən KİV və QHT-lər də eyni missiyanı yerinə yetirir. ABŞ Dövlət Departamenti və ya Konqres derektivlər yaradır, bu planlar USAİD, NED və digər “donorlar” vasitəsilə QHT/KİV şəbəkələrinə ötürülür və beləliklə, qarayaxma kampaniyaları intişar tapır.

Qondarma “hüquq müdafiəçi”lərinin son fəallaşmaları da ABŞ-da mənzillənən NED-in Azərbaycanla bağlı elan etdiyi yeni qrant layihələri ilə eyni vaxta təsadüf edir. Bu layihələrdən görünür ki, ölkədə xaricdən idarə olunacaq yeni QHT/KİV şəbəkəsi formalaşdırmaq istiqamətində ciddi iş gedir. NED-in Azərbaycan üçün 2022-ci ildə təsdiqlədiyi qrantın ümumi məbləği 970 min 235 dollar təşkil edib. Bu məbləğin 398 min 837 dolları “Bakıda və regionlarda vətəndaş iştirakçılığının aktivliyinin artırılması, insan hüquqlarının müdafiəsi adı altında etirazların təşkili, insan haqlarının qorunmasının monitorinqi” və digər layihələrə həsr olunub.

Məsələnin digər tərəfi ondan ibarətdir ki, ABŞ administrasiyası 2021-ci ilin dekabr ayıda keçirilən qalmaqallı “Demokratiya sammiti” çərçivəsində yeni strategiya qəbul edib. “Anti-korrupsiya strategiyası” adlanan bu sənədlə USAID, “jurnalistlər”, “QHT-lər”, “hüquq müdafiəçiləri” üçün yeni imkanlar yaradılır. Hətta fəallıq göstərənlər üçün “Çempionlar Mükafatı” təsis edilməsinə qərar verilir.

Strategiyadan belə nəticə çıxır ki, ABŞ USAİD vasitəsilə xarici ölkələrə nəzarəti gücləndirmək niyyətindədir. USAID-in “Qlobal Hesabatlılıq Proqramı” vasitəsilə müxtəlif ölkələrdə ABŞ tərəfdarları olan QHT/KİV-lərə əlavə vəsaitlərin çatdırılması üçün layihələr icra olunacaq. Bu layihələrə QHT və KİV-lərlə yanaşı, “araşdırmaçı jurnalistlər”, “hüquq müdafiəçiləri” də cəlb ediləcəklər.

Nəticə çıxır ki, ABŞ-ın donor institutlarının dünyada yaratdığı xaos səngiməyəcək, əksinə, daha da genişlənəcək.

# İqtisadi inkişaf maliyyə sistemini möhkəmləndirir

## *2024-cü ilin büdcəsində inflyasiyanın 5,3 faizə endirilməsi nəzərdə tutulur*




(əvvəli 1-ci səhifədə)

Son illərdə ölkədə reallaşdırılan yeni islahatlar və iqtisadiyyatın şaxələndirilməsi sahəsində görülən irimiqyaslı işlər, işğaldan azad olunan ərazilərin bərpası və reinteqrasiyası orta və uzunmüddətli dövrdə dayanıqlı, keyfiyyətli iqtisadi inkişafın təməllərini daha da gücləndirib. Məsələn, cari ilin 9 ayında neft-qaz sektorunda real ÜDM-in 1,5 faiz azalmasına baxmayaraq qeyri-neft-qaz sektorunda iqtisadi artımın 3 faiz yüksəlməsi ümumi iqtisadi artıma müsbət təsir edib.

Qeyri-neft-qaz sənayesi 6,3 faiz, tikinti sektoru 12,5 faiz, informasiya və rabitə sektoru 14,7 faiz, turizm sektoru 26 faiz, kənd təsərrüfatı 3 faiz, ticarət sektoru isə 3,3 faiz artıb. Əsas kapitala investisiya qoyuluşlarının real artım tempinin 21faizi, o cümlədən qeyri-neft-qaz sektorunda 23 faizi ötməsi iqtisadi artıma və məşğulluğa müsbət təsir göstərib. Şübhəsiz ki, bu məsələdə işğaldan azad edilən ərazilərin bərpası üzrə reallaşdırılan investisiyalar mühüm rol oynayıb.

Burada investisiyadan söz düşmüşkən, qeyd edək ki, Azərbaycana sərmayə qoyuluşuna marağın getdikcə artması ölkəmizin siyasi cəhətdən sabit olması, milli, dini və irqi tolerantlığı baxımından seçilməsi ilə bağlıdır. Bununla yanaşı, hökumət tərəfindən həyata keçirilən iqtisadi siyasət, aparılan islahatlar nəticəsində respublikada güclü iqtisadi potensial mövcuddur. Təkcə son 10 il ərzində müasir infrastruktur yaradılması, yüzlərlə müasir müəssisənin fəaliyyətə başlaması da bunun nəticəsidir. Yaradılan əlverişli biznes və investisiya mühiti, Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınması, regionda əlverişli mövqeyə malik olan mühüm tranzit mərkəzi olması, insan kapitalının inkişafı da ölkəmizin investisiya qoyuluşu baxımından cəlbediciliyini artırır.

İnvestisiya qoyuluşuna marağın artmasını şərtləndirən amillər sırasında iş adamlarına göstərilən güzəştlər də önəmli rol oynayır. Vergi Məcəlləsinə və "Gömrük tarifi haqqında" Qanuna əsasən, investisiyanın təşviqi sənədini alan şəxslərdən, habelə fərdi sahibkarlardan ölkəyə idxal olunan texnika, texnoloji avadanlıq və qurğulara görə əlavə dəyər vergisi, habelə gömrük rüsumu tutulmur.

Bu və digər tədbirlərin nəticəsində 2003–2022-ci illərdə Azərbaycan iqtisadiyyatına qoyulan investisiyaların ümumi həcmi 310,4 milyard dollara yüksəlib, həmin göstəricinin, təxminən, yarısı–154,1 milyard dolları isə xarici investisiyalar olub.

Qeyd edək ki, bu gün ölkə iqtisadiyyatına sərmayə qoyuluşunda dinamik artım nəzərə çarpır. Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar–sentyabr aylarında əsas kapitala 12 milyard manat və yaxud ötən ilin eyni dövrü ilə müqayisədə 21 faiz çox vəsait yönəldilib. Son 1 ildə neft-qaz sektoruna investisiyalar 18,1 faiz, qeyri–neft–qaz sektoruna investisiyalar isə 23,2 faiz artıb. Bu ilin ilk yarısında xaricdən cəlb olunan investisiyaların ümumi məbləği isə 3 milyard dollar, xaricə yatırılan sərmayələrin həcmi isə 0,6 milyard dollar olub. Ölkə iqtisadiyyatı qoyulan birbaşa xarici investisiyaların strukturunda neft-qaz sektorunun xüsusi çəkisi 75,9 faiz təşkil edib. 2023-cü ilin yanvar-avqust aylarında xarici ölkələr və beynəlxalq təşkilatların əsas kapitala yönəltdikləri vəsaitin 2 milyard 285 milyon manatı (90,4 faizi) Birləşmiş Krallıq, Türkiyə, ABŞ, Yaponiya, Rusiya, İsveçrə və Norveç sərmayədarlarına məxsus olub.

Son vaxtlarda neft və qazın dünya bazar qiymətlərinin ötən illə müqayisədə aşağı düşməsinə baxmayaraq xarici ticarət balansında böyük həcmli profisit müşahidə edilib. Belə ki, cari ilin 10 ayında ixrac 29 milyard dolları ötüb, ticarət balansının profisiti 15 milyard dollardan çox olub. Qeyri-neft-qaz sektorunun ixracı isə 11faizdən çox artaraq 2,7 milyard dollara yüksəlib. Emal olunan kənd təsərrüfatı məhsulları çıxılmaqla qeyri-neft sənaye məhsullarının qeyri-neft-qaz ixracında payı 68 faizə çatdırılıb.

Mikayıl Cabbarov çıxışında cari ilin 9 ayında qeyri-neft-qaz sənaye məhsullarının ixracında sənaye zonalarının payının 23 faizə yüksəldiyini də diqqətə çatdırıb. İqtisadiyyat naziri bildirib ki, son aylarda qlobal ərzaq bazarlarında qiymətlərin, ticarət tərəfdaşı olan ölkələrdə inflyasiyanın nisbətən səngiməyə başlaması, hökumət tərəfindən antiinflyasiya tədbirlərinin həyata keçirilməsi inflyasiyanın tədricən aşağı düşməsinə imkan verib. Nəticədə cari ilin 9 ayında inflyasiya 10,9 faiz təşkil edib.

İqtisadiyyat naziri Milli Məclisdə 2024-cü il və sonrakı 3 il üçün dövlət büdcəsi layihəsinin müzakirəsindəki çıxışında inflyasiyanın aşağı düşəcəyi ilə bağlı proqnozu da diqqətə çatdırıb. O, inflyasiyanın 2024-cü ildə 5,3 faiz, 2025-2027-ci illərdə isə strategiya ilə müəyyənləşdirilən hədəf diapazonuna uyğun olaraq 4-5 faiz ətrafında proqnozlaşdırıldığını bildirib.

***Vaqif BAYRAMOV***
***XQ***

# Bu mövsümdə kənddə məhsul istehsalı artıb

**Cari ilin 10 ayında Azərbaycanda 10 milyard 865,5 milyon manat dəyərində kənd təsərrüfatı məhsulu istehsal edilib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 3 faiz çoxdur.**



Dövlət Statistika Komitəsinin məlumatına görə, son 1 ildə ölkədə istehsal olunmuş bitkiçilik məhsullarının dəyəri 2,7 faiz artaraq 5 milyard 731 milyon manat, heyvandarlıq məhsullarının dəyəri isə 3,3 faiz artaraq 5 milyard 134 milyon manat təşkil edib.

Məlumatda bildirilir ki, noyabr ayının 1-nə kimi tarlalardan qarğıdalı da daxil olmaqla 3 milyon 172,6 min ton və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,8 faiz çox dənli və dənli paxlalı bitkilər, 1 milyon 753,6 min ton (1,4 faiz çox) tərəvəz, 1 milyon 84,5 min ton (2,4 faiz çox) meyvə və giləmeyvə, 217,5 min ton (6,3 faiz çox) üzüm, 1102,4 ton (15,5 faiz çox) yaşıl çay yarpağı, 29,2 min ton (2,5 faiz çox) günəbaxan, 4,2 min ton (12,2 faiz çox) tütün yığılıb. Bununla belə, ilin ötən dövründə ölkədə bəzi kənd təsərrüfatı məhsullarının istehsalı azalıb. Belə ki, 10 ayda sahələrdən 989,3 min ton (4 faiz az) kartof, 438,2 min ton (6,5 faiz az) bostan məhsulları, 168,9 min ton (15,1 faiz az) pambıq və 125,1 min ton (18,6 faiz az) şəkər çuğunduru yığılıb.

Hesabat dövründə quş əti də daxil olmaqla diri çəkidə 485,4 min ton ət, 1 milyon 864,5 min ton süd, 1 milyard 832,5 milyon ədəd yumurta, 15,1 min ton yun və 357 ton barama istehsal olunub. 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə ölkədə ət istehsalı 3,1 faiz, süd istehsalı 1,5 faiz, yumurta istehsalı 10,5 faiz və barama istehsalı 4,6 faiz artıb. Yun istehsalında isə əksinə, 3 faiz azalma qeydə alınıb.

# AGG və "Şahdəniz"dən 625,7 miliyon ton neft və kondensat çıxarılıb

**2023-cü ilin yanvar-oktyabr ayları ərzində ölkəmizdə 25,3 milyon ton neft (kondensatla birlikdə) hasil edilib.**



Energetika Nazirliyindən XQ-yə bildirilib ki, ölkə üzrə ümumi neft hasilatının 15 milyon tonu "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun payına düşüb. Bununla yanaşı, ilin ötən 10 ayında "Şahdəniz" və "Abşeron" yataqlarında müvafiq olaraq 3,6 milyon ton və 0,2 milyon ton kondensat hasil edilib. Hesabat dövründə SOCAR üzrə neft (kondensatla birlikdə) hasilatı isə 6,5 milyon ton təşkil edib.

Cari ilin 10 ayında 21 milyon ton neft (kondensatla birlikdə) ixraca nəql olunub ki, bunun da 18,5 milyon tonu konsorsiumun, 2,5 milyon tonu isə SOCAR-ın payına düşür.

Yeri gəlmişkən, "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları istismara veriləndən cari il noyabrın 1-dək "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan 581,9 milyon ton neft, "Şahdəniz" yatağından isə 43,8 milyon tona yaxın kondensat çıxarılıb. Ümumi hasilatın 623,7 milyon tonu ixraca nəql edilib.

# Qeyr-neft ixracında artım davam edir

**Cari ilin yanvar-oktyabr aylarında Azərbaycandan 2 milyard 712,5 milyon dollar dəyərində qeyri-neft malları ixrac olunub.**

İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin məlumatına əsasən, bu, 2022-ci ilin eyni dövrü ilə müqayisədə 11,1 faiz çoxdur. Məlumatda bildirilir ki, təkcə oktyabr ayında ölkəmiz dünya bazarına 278,2 milyon dollarlıq qeyri-neft məhsulları ixrac edib ki, bu da əvvəlki ilin oktyabr ayı ilə müqayisədə 15,4 faiz çoxdur.

Qeyd edək ki, 2022-ci ildə Azərbaycanın qeyri-neft ixracı illik müqayisədə 12,3 faiz artaraq 3 milyard 47,67 milyon dollara bərabər olub.

***XQ***

# Azərbaycan dünyanın 5-ci böyük fındıq istehsalçısıdır

## *9 ayda 111 milyon dollarlıq məhsul ixrac edilib*

**Azərbaycan dünya üzrə fındıq istehsalının ən böyük payına malik ilk 5 ölkə sırasına daxil olub. Beynəlxalq Fındıq və Quru Meyvə Şurasının 2022–2023-cü illər üzrə hesabatına əsasən, ölkəmiz qlobal istehsalçılar arasında 4-cü yerdə qərarlaşıb. İlk üçlüyə isə Türkiyə (415,3 min ton – 71 faiz), İtaliya (38,7 min ton – 7 faiz) və ABŞ (31,9 min ton – 5 faiz) daxildir. Beşliyi isə Çili (22,7 min ton – 4 faiz) tamamlayıb.**

2023-cü ilin yanvar-sentyabr aylarında Azərbaycan fındıq ixracından 110 milyon 643 min ABŞ dolları gəlir əldə edib. Bu barədə Kənd Təsərrüfatı Nazirliyi aparatının rəhbəri Azad Cəfərli Bakıda keçirilən "Fındıq potensialının artırılması: Məhsuldarlıq, keyfiyyət və ixrac həcminin artırılmasına innovativ yanaşmalar" mövzusunda keçirilən beynəlxalq konfransda bildirib. Kənd təsərrüfatı məhsulları arasında fındığın mühüm yer tutduğunu və ixrac potensialına görə qərəkli meyvələr arasında ilk yerdə qərarlaşdığını diqqətə çatdıran A.Cəfərli deyib ki, 2022-ci ildə ölkəmizdən qabıqlı fındıq ixracı 2021-ci ilə nisbətən 48,5 faiz, qabıqsız fındıq (ləpə) ixracı isə 10,2 faiz çox olub. Yeri gəlmişkən, son illər Azərbaycandan İtaliya, Almaniya, Rusiya və digər ölkələrə daha çox fındıq ləpəsi ixrac olunub.

Son illər ölkəmizdə fındıq bağlarının genişləndirilməsinə dövlət dəstəyinin artırılması bu sahəyə marağı getdikcə artırır. Ölkə ərazisində subsidiya mexanizminin tətbiqi bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Aqrar Subsidiya Şurasının bu ilin sentyabr ayında təsdiqlədiyi qərara əsasən, boş olan meşə fondu torpaqlarında, dağlıq və dağətəyi ərazilərdə salınan intensiv fındıq bağlarının hər hektarına görə 5 min manat məbləğində əkin subsidiyası ödəniləcək. Xatırladaq ki, subsidiya 1 hektara minimum 330 ədəd ocağın olduğu və damcı suvarma sistemi ilə təmin olunmuş intensiv meyvə bağlarına aid edilir. Subsidiya veriləcək digər meyvə bağlarında isə 1 hektara əkilmiş tinglərin minimum sayının 90 ədəd olması müəyyənləşdirilib. Yeri gəlmişkən, Aqrar Subsidiya Şurasının qərarı fındıq üzrə əkin əmsalı Ağdam, Ağdaş, Ağstafa, Ağsu, Balakən, İsmayıllı, Zaqatala, Zəngilan, Xaçmaz, Xocavənd, Qax, Qəbələ, Quba, Qubadlı, Oğuz, Qusar, Qazax, Tərtər, Tovuz, Şabran, Şamaxı, Şəki, Şəmkir və Yardımlı rayonlarına şamil edilir.

Bununla yanaşı, son illər Azərbaycanda kənd təsərrüfatında sığorta sisteminin tətbiqi də fermerləri fındıq yetişdirməyə həvəsləndirir. Artıq fermer əmindir ki, baş verə biləcək hər hansı təbii fəlakət səbəbindən ona dəymiş ziyanın qarşılanmasında dövlət onun yanındır. Məlum olduğu kimi, fındıq sahələrinin sığortalanması zamanı bitkinin məhsuldarlığı, qiyməti, yerləşdiyi ərazi və seçilən sığorta zərfi nəzərə alınır. Onu da qeyd edək ki, qaydalara əsasən, hesablama aparılması üçün fındığın 1 hektar sahəsi üçün məhsuldarlıq və məhsulun qiymət normaları müəyyən edilib. Daha doğrusu, sığorta fındığın bir hektarı üçün məhsuldarlıq normasına uyğun olaraq ödənilir. Bu da məhsulun bir sentneri üçün, təqribən, 350-550 manat təşkil edir.



Aqrar Sığorta Fondunun məlumatına görə, fındıq sahəsinin sığortalanması zamanı fermerlərə sığorta haqqının ödənişində əlavə güzəştlər də nəzərdə tutulub. Belə ki, sığortalanmış məhsulun yerləşdiyi ərazi dolu riskindən qorunma konstruksiyalarına malik olduqda sığorta haqqına 5 faiz güzəşt edilir. Bundan əlavə, sığorta hadisəsi olmadan başa çatan hər ilə görə fermer sığorta haqqında 5 faiz güzəşt almaq hüququna malikdir. Məsələn, hadisəsiz keçən 1 ildən sonra sığorta haqqında 5 faiz, iki ildən sonra 10 faiz, üç ildən sonra isə 15 faiz güzəşt nəzərdə tutulur.

Bununla belə, Azərbaycanda meyvəçiliyin digər sahələri kimi, fındıq yetişdirilməsi sahəsində də müəyyən problemlər movcuddur. Bu da, əsasən, su qıtlığı ilə bağlıdır. Fındıq istehsalı ilə məşğul olan şirkətin rəhbəri Cavid Kazımov bildirib ki, bu il Azərbaycanın fındıq bağları su qıtlığı və iqlim dəyişikliyi problemləri ilə üzləşib. Onun sözlərinə görə, elə bağlar var ki, suvarması olmasa da, onlardan yüksək məhsul əldə etmək mümkündür. Bununla belə, zərərvericilər və iqlim dəyişikliyi suvarma sistemi ilə təchiz olunmuş bəzi fındıq bağlarının məhsuldarlığına mənfi təsir edib. O qeyd edib ki, 2023-cü ilin fındıqçılıqla məşğul olan fermerlər üçün çətin keçib. Müəyyən regionlarda məhsuldarlıq 30 faizədək aşağı olub. Hətta bəzən eyni bağın yuxarı və aşağı hissəsində belə, fərqli məhsuldarlıq qeydə alınıb.

Kənd Təsərrüfatı Nazirliyi aparatının rəhbəri Azad Cəfərli isə bəzi bağlarda məhsuldarlığın aşağı olmasına münasibət bildirərkən deyib ki, digər meyvə istehsalçıları ilə müqayisədə fındıqçılıqla məşğul olan fermerlərin bilik və bacarıqlarının daha da təkmilləşdirilməsinə ehtiyac var. "Kiçik təsərrüfatlarda məhsul yığımından sonra saxlanma şəraitinin düzgün təşkil olunmaması da əsas çətinliklərdən biridir", – deyə o, əlavə edib.

Fındıqçılıqda müşahidə olunan başlıca problemlərdən biri də məhsulun ixracı ilə bağlıdır. İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) icraçı direktorunun müşaviri Tural Hacılı bildirib ki, xarici ixrac prosesində məhsul təyinat ölkəsinin tələblərinə uyğun yoxlanılmalı və sertifikatlaşdırılmalıdır. Onun sözlərinə görə, bu zaman hər şey təkcə Azərbaycandan asılı olmur, məhsullar qarşı tərəfin qoyduğu standartlara da cavab verməlidir. Bununla belə, AZPROMO problemin həlli üçün bütün mümkün vasitələrdən istifadə etməyə çalışır.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycandakı nümayəndəsinin müavini Bariz Mehdiyev Bakıda "Fındıq potensialın artırılması: Məhsuldarlıq, keyfiyyət və ixrac həcminin artırılmasına innovativ yanaşmalar" mövzusunda keçirilən beynəlxalq konfransda bildirib ki, Azərbaycanda fındıq bağlarının peyk və dronla xəritəsi hazırlanıb. Fındığın Azərbaycan üçün ən gəlirli, ixracyönümlü məhsullardan biri olduğunu vurğulayan B. Mehdiyein dediyinə görə, FAO Azərbaycan Tərəfdaşlıq Proqramı çərçivəsində Kənd Təsərrüfatı Nazirliyi ilə birgə 2020-ci ildən bəri Azərbaycanda fındıqçılıq sahəsində səmərəliliyinin yüksəldilməsi layihəsi icra edir. Layihənin əsas istiqaməti isə fındıqçılıqda səmərəliliyi artırmaq, istehsal edilmiş məhsulun keyfiyyətini yüksəltməkdir. Azərbaycanda qabaqcıl kənd təsərrüfatı təcrübələrinin tətbiqi üçün yerlərdə lazımi işlərin görüldüyünü bildirən FAO nümayəndəsinin müavini onu da deyib ki, yaxın müddətdə ölkəmizdə yeni layihələrin başlanmasına start veriləcək.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

20 Noyabr Ağdam Şəhəri Günüdür

# Qədim Qarabağın yeni Ağdamı...

## Sənin yeni növrağın başlanır, əziz şəhərim!

(əvvəli 1-ci səhifədə)

Ancaq, üç il əvvəl bu gün doğma Ağdamımız bir güllə atmadan, bir nəfər də şəhid vermədən qayıtdı. Əlbəttə ki, bu, Azərbaycan Ordusunun şanlı hərbi Qələbəsi nəticəsində mümkün oldu. Əgər Azərbaycan Ermənistanı döyüş meydanında məğlub etməsəydi, Ermənistan öz xoşu ilə torpaqlarımızdan çıxmayacaqdı.

Bu gün həmin hadisədən düz 3 il ötür. Bu il iyulun 31-də Prezident İlham Əliyevin sərəncamı ilə 20 Noyabr – Ağdam Şəhəri Günü elan edilib. Bu xoş xəbər, müjdə xalqımızın ictimai-siyasi həyatında daim milli dövlətçiliyə sədaqəti ilə seçilən, mədəniyyətimizin inkişafına böyük töhfələr verən Ağdamın bütün vətənpərvər sakinləri və ziyalıları tərəfindən sonsuz minnətdarlıq hissilə qarşılanıb.

Bakı Dövlət Universitetinin professoru, fəlsəfə elmləri doktoru Azər Allahverdiyev qeyd etdi ki, böyüyüb boya-başa çatdığı Ağdamın işğal altında olduğu dönəmlərdə, qəlbinin dərinliklərində ağır torpaq nisgili, həsrəti olub. İndi isə özünü çox xoşbəxt hesab edir.

Həmsöhbətim bir məqamı da vurğuladı ki, hər bir insanın tam azad və xoşbəxt ömür sürməsi üçün azad və şanlı ölkənin vətəndaşı olması əsas şərtdir. Azər müəllim həmin an qəlbindən dilinə axan bu sözləri xüsusi vurğu ilə dedi:

– Mən bir Azərbaycan vətəndaşı, bir ağdamlı olaraq bu böyük xöşbətliyi xalqımıza nəsib edən hər bir əsgər və zabitimizə, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevə sonsuz minnətdarlığımı bildirirəm. Şəhidlərimizin hər birinin ruhu qarşısında acizanı baş əyir, qazilərimizə cansağlığı, Allahdan şəfa diləyirəm!



Ağdamın azad olunması xəbərini eşidəndə dünyalar qədər sevinmişəm.

Cahangir müəllim xeyli kövrəlmişdi. Dedi ki, o, indi zərrə qədər şübhə etmir ki, Qarabağın digər bölgələrindən olan məcburi köçkünlər kimi, ağdamlılar da tezliklə öz doğma yurd yerlərinə qayıdacaq, bu bərəkətli torpaqlarda əkib-becərəcək, qurub-yaradacaq, bir sözlə, əbədi yaşayacaqlar.

Ermənilərin adını xəritələrdən əbədi silmək üçün vandalcasına dağıtdıqları Ağdam şəhərində və bu rayonun, demək olar ki, bütün kəndlərində son üç ildə heyrətamiz səviyyədə tikinti-quruculuq işləri görülüb və görülməkdə davam edir. Siz kəskin təzada baxın:



...Birinci Qarabağ müharibəsinin qərgin günlərində Ağdam cəbhəsində ağır döyüşlər gedirdi. Bu bölgənin mərd, qeyrətli oğulları könüllü olaraq düşmənlə mücadiləyə qalxmışdılar. O zaman biz hələ sovet imperiyasının tərkibində idik, topumuz, tüfəngimiz, ordumuz yox idi. Düşmənin isə havadarları çox idi.

Yadımdadır, Ağdam cəbhəsi o dönəmdəki ağır döyüşlərin ən həssas nöqtələrindən biri idi. O qanlı-qadalı günlərdə qələmlərini silaha çevirən jurnalistlərimiz də vardı. Onların arasında ovaxtkı "Kommunist, hazırkı "Xalq qəzeti"nin Qarabağ üzrə xüsusi müxbiri rəhmətlik Ziyəddin Sultanov xüsusilə fərqlənirdi.

Qarabağı yaxşı tanıyan istedadlı jurnalist, demək olar ki, tez-tez cəbhənin təmas xətlərinə gedir, könüllülərlə görüşür, müsahibələr alır, bu yazıları operativ qaydada qəzet səhifələrində dərc etdirirdi.

"Qarabağın müxbiri" bununla işini bitmiş hesab etmirdi. O, bütün varlığı, ruhu ilə qələmə aldığı qəzet yazılarını özü əlbəəl Qarabağın könüllü müdafiəçilərinə çatdırırdı. Qəzet səhifələrində fotolarını və ürək sözlərini görən döyüşçülər isə hər dəfə müəllifə ürəkdolusu minnətdarlıq edirdilər.

Bakı Dövlət Universitetində çalışdığı yarım əsrdən çox müddət ərzində Azərbaycan jurnalistlərinin bir neçə nəslinin sevimli müəllimi olmuş, filologiya elmləri doktoru, professor Cahangir Məmmədli Ağdamın keçmişi və bugünü barədə söz düşəndə belə söylədi:

– İlahi ədalət deyilən bir anlayış var. Qarabağda ədalət qələbə çalmalı idi. Məhz belə də oldu! Bu gün Qarabağın hər bir guşəsində Azərbaycanın üçrəngli bayrağı qürurla dalğalanır! Mən həyatımın ən böyük arzusu –doğma ermənilər dağıdırdı, biz qururuq, dirçəldirik. Ona görə ki. bura halal torpağımızdır, Vətənimizdir!

Bəli, bu gün Ağdam rayonu və onun yaşayış məntəqələri gözlərimiz önündə yenidən qurulur. Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş, 2022-2026-cı illəri əhatə edən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində Böyük Qayıdışa dair I Dövlət Proqramı" böyük uğurla həyata keçirilir.



Hazırda Ağdam şəhəri dünya memarlarının da diqqət mərkəzindədir. Təsadüfi deyil ki, 2022-ci il oktyabrın 5-də BMT-nin Məskunlaşma Proqramı (UN-HABITAT) və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin birgə əməkdaşlığı, ADA Universitetinin təşkilati dəstəyi ilə Ağdamda "Dayanıqlı İnkişaf Məqsədləri" və "Yeni Şəhər Gündəliyi" – postmünaqişə dövründə bərpa və yenidənqurmanın aparıcı qüvvəsi kimi" mövzusunda Azərbaycan Milli Şəhərsalma Forumu keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu mühüm tədbirdə iştirak ediblər.

Dövlətimizin başçısı forumdakı dərin məzmunlu, parlaq çıxışında demişdir: "İndi biz burada – işğaldan azad olunmuş Ağdamda keçmiş məcburi köçkünlərin öz yurdlarına tezliklə qayıtmasını üçün bütün potensialımızı səfərbər edirik. İrimiqyaslı infrastruktur layihələri icra olunur. ...Beləliklə, biz artıq burada – Ağdamda bir neçə evin tikintisinə başlamışıq. Mən dünən burada idim və 3 kəndin – Xıdırlı, Kəngərli və Sarıcalının təməlqoyma mərasimlərində iştirak etmişdim. Maksimum iki ildən sonra bu kəndlərdə bir neçə min insan yaşayacaqdır".

Bu günlərdə mətbuatda belə bir xəbər oxudum. Orada deyilirdi ki, qədim Qarabağın yeni Ağdamı ən yaxın illər ərzində 100 minlik əhalini öz qoynuna alacaq. Ermənilərin xarabazara qoyduğu köhnə Ağdam şəhərinin yerində məmləkətimizdə öz böyüklüyünə görə dördüncü, külli-Qarabağın isə ən böyük şəhəri inşa olunacaq! Sənin yeni növrağın başlanır, əziz Ağdamım!

...Ağdam azad olunanda yazının əvvəlində haqqında bəhs etdiyimiz hörmətli həmkarım Ziyəddin Sultanov, eləcə də onlarla digər dəyərli ziyalılarımız artıq həyatda deyildilər. Qeyd etmək lazımdır ki, bu vətənpərvər insanların qəlbində xalqımızın Qarabağdakı qələbəsinə olan sonsuz ümidləri heç vaxt azalmamışdı. Şübhə etmirəm ki, 2022-ci ilin payızındakı 44 günlük savaşda qazandığımız Tarixi Zəfərimiz onların hər birinə əyan olub. Ruhları şad olsun!

**PS.** "Xalq qəzeti"nin redaksiya heyəti bir müddət əvvəl Qarabağ üzrə xüsusi müxbir postu yaradıb. İndi qəzetimizin səhifələrində dövlət başçısının göstərişilə Şuşada, Ağdamda, Füzulidə, eləcə də Qarabağın digər bölgələrində xüsusilə geniş vüsət alan tikinti-quruculuq işləri, bu bərəkətli torpağı öz fədakar əməyi ilə laləzara çevirən əmək adamları, kollektivlərin fəaliyyəti barədə vaxtaşırı xəbərlər, oçerk və reportajlar dərc olunur. Bu, bizim çox da böyük olmayan yaradıcı kollektivin ölkəmizin inkişaf və tərəqqisinə töhfəsidir. Qarabağ bizimdir. Yaşasın Azərbaycan!

***Məsaim ABDULLAYEV***
**XQ**

---

**İşğaldan azad edilmiş şəhər və kəndlərə həyat yenidən qayıdır, böyük quruculuq, təmir-bərpa işləri aparılır. Ərazilərdə təhlükəsizlik məsələləri nəzərə alınmaqla infrastruktur strateji hədəflərə uyğunlaşdırılır, nəqliyyat sisteminin fasiləsiz fəaliyyəti üçün yollar çəkilir, telekommunikasiya şəbəkələri qurulur. Eyni zamanda elektrik, su, istilik və qaz təchizatı təmin edilir.**

# "Ruhlar şəhəri"ndə "yaşıl enerji"



Həmin xidmətlər üzrə mövcud resursların effektiv istifadəsi və idarə olunmasının təmin edilməsi Qarabağda, o cümlədən Ağdamda sosial-iqtisadi münasibətləri daha məhsuldar və səmərəli edir, iqtisadi inkişafın ümumi dəyər zəncirində yeni gəlir imkanları yaradır. Bu imkanlar Ağdam rayonunda "Ağıllı şəhər" və "Ağıllı kənd" xidmətlərinə keçid üçün zəmin yaradır. Yaşıl enerjidən istifadəni gündəmə gətirir.

İqtisadçı ekspert Mahir Həmzəoğlu bu barədə danışarkən bildirdi ki, ilk "Ağıllı şəhər" Ağdamda qurulur, burada ən mühüm prioritetlərdən biri yaşıl enerjidən istifadə edilməsidir. Ekspert daha sonra dedi:

– Ağdam Azərbaycanın ən günəşli rayonlarından biridir. Son 50 ilin məlumatına əsasən, ilin üçdə iki hissəsi günəşli hesab olunur. Bu, ondan xəbər verir ki, günəş enerjisinin potensialı böyükdür və bundan səmərəli istifadə etmək olar. Ona görə də, binaların layihələndirilməsi zamanı bu məsələlər nəzərə alınır. Daha çox enerji səmərəliliyinə yönəlmiş layihələrə üstünlük verilir. Bu üstünlük Ağdam rayonunda yaşıl enerjidən istifadəni aparıcı sahəyə çevirir.



**İqtisadçı Gülnar Mustafayeva da Ağdamda yaşıl enerjidən istifadənin səmərəli olduğunu bildirdi:**

– Ağdam yaşıl enerjiyə keçidin sürətləndirilməsində önəmli yerə sahibdir. Şəhərdə müasir şəhərsalma konsepsiyası əsasında ən təkmil innovasiyaların tədbiqi sayəsində yenidənqurma işləri həyata keçirilir. Eyni zamanda, alternativ enerji mənbələrinin mövcudluğu nəzərə alınaraq buranın bərpa olunan enerji zonasına çevrilməsi böyük əhəmiyyət kəsb edir. Beynəlxalq təcrübə nəzərə alınmaqla bölgənin şəhər və kəndləri "smart-city" ("Ağıllı şəhər") və "smart-village" ("Ağıllı kənd") konsepsiyası əsasında yenidən qurulur. Bu da, öz növbəsində yaşıl enerjiyə tələbatı artırır.

Rayonun ölkə iqtisadiyyatına sürətli inteqrasiyasının təmini, dayanıqlı inkişafı, o cümlədən, layiqli yaşayış şəraitinə nail olunması üçün həyata keçirilən genişmiqyaslı quruculuq və bərpa işləri çərçivəsində Ağdam Sənaye Parkı yaradılıb. Park müasir texnologiyaların tətbiqi yolu ilə sənaye sahəsində rəqabətqabiliyyətli məhsul istehsalı, emalı, həmçinin təkrar emalı və satışı, habelə xidmətlər göstərilməsi üçün istifadə edilən, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazi kimi qurulub inkişaf etdirilir.

Artıq Ağdam Sənaye Parkında da yaşıl enerjidən istifadə edilir. Bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov öz "twitter" hesabında bildirmişdi ki, parkın ərazisinin işıqlandırılmasında yerli istehsal olan günəş panellərindən istifadə edilir. Nazirin sözlərinə görə, azad edilmiş ərazilərin yaşıl enerji zonasına çevrilməsi prioritetlərdəndir.

Ağdam rayonunda salınacaq "Ağıllı kənd"lərdə də günəş enerjisindən geniş istifadə ediləcək. Ölkəmizdə üçüncü "Ağıllı kənd" layihəsi Ağdam rayonunun Baş Qərvənd kəndində reallaşacaq. Əvvəlki layihələrdən fərqli olaraq Baş Qərvənd kəndinin Slovakiya Respublikasının mütəxəssisləri tərəfindən layihələndirilərək "Ağıllı kənd" kimi bərpası nəzərdə tutulub.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov bu barədə demişdir:

– Sözsüz ki, bu layihə də Azərbaycan dövlətinin vəsaiti hesabına həyata keçiriləcək. Amma burada tətbiq ediləcək "ağıllı həllər" məhz Slovakiya mütəxəssisləri və mühəndisləri tərəfindən reallaşdırılacaq. Hesab edirik ki, bu da bərpa prosesində baş verən yeniliklərdən biridir. Layihə çərçivəsində, ümumilikdə, ərazisi 476 hektar olan bir kəndin tamamilə yenidən qurularaq "ağıllı kənd" kimi bərpası nəzərdə tutulur. Kəndə birinci mərhələdə 5500, ikinci mərhələdə isə 1170 sakinin köçürülməsi planlaşdırılır.

Aydındır ki, kəndin işıqlandırılması da gündəmdə olan məsələdir. Baş Qərvənd kəndində tikiləcək evlərin damlarında 3 kilovatt-saatlıq günəş panelləri quraşdırılacaq. Ölkədə ilk dəfə iki tərəfə işləyən modern elektrik sayğaclarından (həm qəbul edən, həm də ötürən–P.Ə) istifadə ediləcək. Evin damında olan günəş panellərində istehsal olunan enerji həm evlərə daxil olacaq, həm də artıq enerji şəbəkəyə qayıdacaq. Bu, Azərbaycanda yenilikdir. Nəzərə alsaq ki, 3 kilovatt-saatlıq bir panel 8 saat enerji verəcək. Bu da o deməkdir ki, bir günəş paneli gündə 24 kilovatt-saat, ayda orta hesabla 720–744 kilovatt-saat elektrik enerjisi istehsal edəcək. Bir evin də enerji istifadəsi 600-700 kilovatt-saatdır. Onun tələbatını günəş paneli qarşılayacaq. Artıq qalan elektrik enerjisi iki tərəfli işləyən – həm qəbul edən, həm də ötürən sayğacla şəbəkəyə ötürüləcək. Elə gün ola bilər ki, hava tutqun olsun və günəş paneli elektrik enerjisi verməsin. O halda ev mərkəzi şəbəkədən qidalanacaq. İstifadədən artıq elektrik enerjisi isə yenidən şəbəkəyə qayıdacaq. Bunu sayğac özü edəcək. Nəzərə alaq ki, kənddə yüzlərlə günəş paneli olacaq.Bu yenilik Ağdamın işğaldan azad edilmiş digər kəndlərinin bərpasında da tətbiq ediləcək.

Ağdamda yaşıl enerjinin tədbiqi, "Ağıllı şəhər" və "Ağıllı kənd" layihələrinin icra edilməsi, eko-sənaye parkının yaradılması, bərpaolunan enerji mənbələrindən istifadə inkişafın davamlılığını ön plana çıxarmaqla ətraf mühit üçün riskləri azaldacaq. Bir sözlə, qarşıdakı illərdə Ağdam yaşıl enerjidən istifadə etməklə inkişaf edən dünyanın nümunəvi məkanlarından biri olacaq.

***P.ƏFƏNDİYEV***
**XQ**

# Soydaşlarımızın tarixi Vətənə qayıtmaq hüququ

**Tarixi hadisələrin xalqımızın əleyhinə daha amansızlıqla cərəyan etdiyi son 1 əsrdə erməni millətçiləri azərbaycanlıları Qərbi Azərbaycanın müxtəlif bölgələrindəki ata-baba yurdlarından vəhşicəsinə deportasiya edərək tarixi torpaqlarımıza sahibləniblər, zəngin mədəni irsimizi məhv ediblər.**



1991-ci ilin 18 oktyabr tarixində Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi barədə Konstitusiya Aktını qəbul edərək, dövlət müstəqilliyimizi yenidən bərpa etdik. Həmin sənədin 2-ci bəndində göstərilir ki, "Azərbaycan Respublikası 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olmuş Azərbaycan Respublikasının varisidir". Eyni zamanda, Konstitusiya Aktının 3-cü maddəsində qeyd edilir: "SSRİ-nin təşkili haqqında 1922-ci il 30 dekabr tarixli müqavilənin Azərbaycana aid hissəsi imzalandığı andan etibarsızdır". Konstitusiya Aktının 2-ci və 3-cü maddələrinə istinad edərək qeyd edə bilərik ki, 1919-cu ilin yanvar ayında Parisdə Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndə heyətinin təqdim etdiyi xəritəyə əsasən, Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi 113,9 min kvadratkilometrdən ibarət olmuşdur.

1920-ci ildə Azərbaycanın bolşevik işğalından sonra Zəngəzurun və digər ərazilərimizin qanunsuz olaraq ermənilərə verilməsi nəticəsində tarixi torpaqlarında yaşayan azərbaycanlıların milli mənsubiyyətlərinə görə ata-baba yurdlarından deportasiya edilməsi dəfələrlə –1920, 1922, 1929, 1948 və 1953-cü illərdə baş vermişdir. Sonuncu dəfə belə bir deportasiya 1987–1991-ci illərdə həyata keçirilmişdir. Ermənilər tərəfindən 1987–1991-ci illər ərzində 250 mindən çox azərbaycanlı öz ata-baba yurdlarından kütləvi şəkildə deportasiya edilmiş, onların mülkiyyət hüquqları pozulmuş, soydaşlarımıza qarşı qeyri-insani rəftar edilərək əmlakları əllərindən alınmış, özləri isə fiziki zorakılığa məruz qalmışlar.

Bütün bu hadisələr zamanı ermənilər tərəfindən çoxsaylı qətllər törədilmişdir. Bu isə 1907-ci ildə qəbul edilmiş və hazırda da qüvvədə olan "Müharibənin aparılmasının hüquq və adətləri haqqında 4-cü Haaqa Konvensiyası"nın Əlavəsinin 42-ci maddəsinə uyğun deyil. Burada təsbit olunan "işğal edilmiş ərazinin suverenliyinin işğalçı dövlətə keçməməsi" prinsipinə uyğun olaraq Qərbi Azərbaycanın Zəngəzur və Göyçə mahallarının Moskvanın təkidi və təzyiqi ilə ermənilərə verilməsi qeyd olunan beynəlxalq hüququn prinsiplərinə ziddir və qeyri-legitim hesab edilir.

Qeyd etməliyik ki, Beynəlxalq Nürnberq tribunalında nasist Almaniyasının İkinci dünya müharibəsində törətdiyi işğalçılıq siyasətinə, təcavüz aktlarına və kütləvi qırğın cinayətlərinə məhz beynəlxalq hüququn adət halına çevrilmiş və 1907-ci il Haaqa Konvensiyasının Əlavəsinin 42-ci maddəsinə istinad olunaraq hüquqi qiymət verilmişdir. Tribunalda nasistlərə verilən ittihamnamələrə diqqət etsək, cinayətlərin aşağıdakı növlərinin olduğunu görə bilərik:

– sülhə qarşı işlənən cinayətə və ya sui-qəsdə ortaq olmaq;
– sülhə qarşı döyüş, təcavüzkarlıq və digər cinayətlərə başlamaq və planlamaq;
– müharibə cinayətləri;
– insanlığa qarşı cinayətlər.

İttihamnamədə qeyd olunan əlamətlər məhz Qərbi azərbaycanlılara qarşı törədilən cinayət əməllərində də öz əksini tapmışdır. Bundan başqa, beynəlxalq hüququn adət halına çevrilmiş normalar, işğalçıların işğal siyasətinin qarşısının alınması və işğal olunan torpaqlarda yaşayan insanların yaşamaq hüququnun, əmlak hüququnun (mülkiyyət hüququnun) tanınması kimi mütləq hüquqlar beynəlxalq hüquqla müəyyən olunan digər müqavilələrdə də təsbit edilmişdir.

Xüsusilə qeyd etmək lazımdır ki, Çar Rusiyası 1899-cu və 1907-ci ildə qəbul edilmiş Haaqa Konvensiyasına qoşulmuş, SSRİ Haaqa Konvensiyasını və onun Protokolunu 4 yanvar 1957-ci ildə ratifikasiya etmiş və bunu təsdiq edən normativ hüquqi akt 4 aprel 1957-ci ildə qüvvəyə minmişdir. SSRİ-nin varisi olaraq Rusiya Federasiyası Haaqa Konvensiyasını 31 may 1992-ci ildə təsdiq etmişdir.

Birləşmiş Millətlər Təşkilatının 1948-ci ildə qəbul etdiyi İnsan Hüquqları haqqında Ümumi Bəyannaməsinin 13-cü maddəsinin 2-ci hissəsinə əsasən, "Hər bir insanın öz ölkəsi də daxil olmaqla istənilən ölkəni tərk etmək və öz ölkəsinə qayıtmaq hüququ var". 1950-ci il İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Avropa Konvensiyasının 4 saylı Protokolunun "Vətəndaşların məcburi çıxarılmasının qadağan olunması" barədə 3-cü maddəsinin 1-ci hissəsinə əsasən, "Heç kəs vətəndaşı olduğu dövlətin ərazisindən fərdi və ya kollektiv tədbirlər yolu ilə çıxarıla bilməz".

BMT-nin 1948-ci il İnsan Hüquqları haqqında Ümumi Bəyannaməsinin və 1966-cı il Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın müddəalarına əsasən, azərbaycanlıların Qərbi Azərbaycan torpaqlarından, indiki Ermənistan ərazisindən zorakılıqla deportasiya edilməsi ciddi hüquq pozuntusu hesab edilir. Yerli əhalinin yaşadıqları yerdə kütləvi şəkildə qətlə yetirilməsi ilə bağlı beynəlxalq məhkəmələrin təcrübəsinə baxdıqda, Nürnberq tribunalının nasistlər barədə çıxardığı qərar və Ruanda tribunalının "etnik tutsilərin" kütləvi şəkildə qətlə yetirilmələri barədə qərarı Qərbi azərbaycanlılara qarşı törədilən kütləvi deportasiya və qətllər cinayətinə presedent hüququ olaraq tətbiq edilə bilər.

BMT-nin 26 noyabr 1968-ci il tarixli "Hərbi cinayətlərə və bəşəriyyətə qarşı cinayətlərə cinayət məsuliyyətinə cəlbetmə müddətinin tətbiq edilməməsi haqqında" Konvensiyasına qoşulmaq barədə 31 may 1996-cı il tarixli Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Beynəlxalq cinayətlərə görə məsuliyyət müəyyən edən qanunun qüvvəsinin geriyə şamil olunması haqqında 5 dekabr 2006-cı il tarixli Azərbaycan Respublikasının Konstitusiya qanunu qəbul edilmişdir. Azərbaycan Respublikasının Baş Prokurorluğunda erməni separatçıları tərəfindən 1987–1991-ci illərdə öz ata-baba yurdlarından zor gücü ilə qovularaq kütləvi deportasiya edilmiş azərbaycanlılara qarşı törədilən cinayət əməllərinə görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103, 107, 109, 120.2.7-ci maddələri ilə cinayət işi başlanmışdır. Ümid edirik ki, Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən Cinayət Məcəlləsinin qeyd olunan maddələri ilə açılmış cinayət işi üzrə təqsirləndirilən şəxslər ən qısa zamanda istintaqa cəlb olunacaq və ədalət mühakiməsi qarşısında cavab verəcəklər.

Bütünn bunlar onu göstərir ki, azərbaycanlıların Qərbi Azərbaycan torpaqları olan və hazırda qonşu Ermənistanın ərazisi hesab edilən ərazilərə – öz ata-baba yurdlarına geri dönərək sülh və təhlükəsiz şəraitdə yaşamaq hüquqları var və bu hüquqlar yuxarıda qeyd olunan beynəlxalq hüquq normaları ilə müəyyən edilir. Qərbi azərbaycanlıların yenidən öz ata-baba yurdlarında məskunlaşması beynəlxalq hüququn prinsiplərinə və insan hüquqları ilə bağlı beynəlxalq konvensiyaların tələblərinə əsasən, Ermənistan hakimiyyətinin öhdəliyi olaraq şərtsiz şəkildə icra edilməlidir.

Qərbi azərbaycanlıların tarixi ata-baba torpaqlarına qayıtmaq hüquqlarının olmasını Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev öz çıxışlarında dəfələrlə vurğulamışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev indiki Ermənistan ərazisinin qədim Azərbaycan torpaqları olmasını və məhz tarixi səhvlər səbəbindən torpaqlarımızın ermənilərə verilməsini xüsusi qeyd etmişdir.

2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində Prezident, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu şanlı tarixi qələbə qazanaraq 30 illik işğal altında qalmış torpaqlarımızı azad etmiş, dövlət suverenliyini bərpa edərək, regionda güclü Azərbaycan dövlətinin tarix səhnəsində öz sözünü yenidən dediyini bütün dünyaya bəyan etmişdir.

*Araz ABDULLASOY,*
*Hüquq və İnsan Haqları İnstitutunun hüquqi tədqiqat şöbəsinin müdiri*

# Birtərəfli açıqlama, siyasi riyakarlıq

*(əvvəli 1-ci səhifədə)*

Qərbi Azərbaycan İcması da həmin müsahibədə, guya, ermənilərin Azərbaycanda etnik təmizləməyə məruz qalması iddiasının müqabilində azərbaycanlıların 35 il əvvəl Ermənistandan son nəfərinədək qovulması gerçəyinin üstündən sükutla keçilməsini siyasi riyakarlıq və ölkəmizə qarşı bədxah münasibət kimi qarşılayıb. İcmanın bununla bağlı bəyanatında bildirilir ki, Aİ rəsmisi Azərbaycanın Qarabağ bölgəsindən Ermənistana köçmüş ermənilərin qayıtmaq hüququ barədə danışdığı halda, Ermənistandan qovulmuş 300 min azərbaycanlının qayıdışı barədə heç nə deməmişdir:

– Bu, etnik və dini zəmində ayrı-seçkilikdir. Xatırladaq ki, dəfələrlə etdiyimiz müraciətlərə baxmayaraq, Aİ bizim qayıdış hüququmuz barədə mövqeyini ictimai şəkildə ifadə etməkdən imtina edir. Bundan başqa, Aİ rəsmisi Ermənistanın ərazi bütövlüyünün qorunmasından müqəddəs vəzifə kimi dəm vuraraq, Azərbaycanı təhdid etmişdir. Əvvəla, Aİ-yə yaxşı məlumdur ki, Azərbaycan bütün dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə hörmətlə yanaşır.

Bundan əlavə, 30 il ərzində Azərbaycanın ərazi bütövlüyünü pozmuş, işğal etdiyi Azərbaycan ərazilərindən yüz minlərlə azərbaycanlını qovmuş və Azərbaycanın minə yaxın şəhər və kəndini dağıtmış Ermənistanın əməllərinə göz yuman Aİ-nin indi Ermənistanın heç bir təhdid altında olmayan ərazi bütövlüyünün müdafiəsinə qalxması ikiüzlülükdür.



Sənəddə daha sonra deyilir ki, Aİ rəsmisinin Azərbaycanın "Qarabağda birtərəfli hərbi addım atması"ndan əndişələnməsi riyakarlıqdır:

– Azərbaycan öz suveren ərazisində əməliyyat keçirməyə görə heç kimdən, o cümlədən Aİ-dən icazə almır və heç kimə hesabat vermir. Qarabağda beynəlxalq qüvvələrin mövcudluğunun vacibliyini vurğulayan Aİ, gedib belə missiyaların Aİ ölkələrinə, məsələn, irqçilik və islamofobiyanın çiçəkləndiyi, Korsika dilinin qadağan edildiyi Fransaya və ya rus etnik azlığına qarşı ayrı-seçkilik siyasəti yeridən Litvaya göndərilməsi ilə məşğul olsun.

Aİ Azərbaycanın daxili işlərinə müdaxilə kimi düşük və təkəbbürlü əməllərinə son qoymalı, bölgədə vəziyyəti gərginləşdirən ikiüzlü və ayrı-seçkilik siyasətindən əl çəkməli, Ermənistanın silahlandırılmasını dayandırmalı və bu ölkədən qovulmuş azərbaycanlıların öz evlərinə qayıtmaq hüququna hörmət etməlidir.

*Hazırladı:*
*T.RÜSTƏMLİ*
*XQ*

# Dərələyəz ağrıları



Həsən Mirzə, Dərələyəz necoldu,
Hardan alım Bolbulağın tayını.
Oğul istər bulaq üstə keçirə
Zamanını, həftəsini, ayını.

Nə yorulur, nə deməkdən doyurdun,
Öz dərdini yer üzünə yayırdın.
Gur suları bircə-bircə sayırdın,
Sən bilirdin bulaqların sayını.

Düşmənlərin gözlərini oyurdun,
Yurd sözünü göz üstünə qoyurdun.
Tərifini çox eşitdim o yurdun,
Görəmmədim baharını, yayını.

Torpaq yoxsa nə bayram var, nə şənlik,
Sənsiz qaldı o dağ, o düz, çəmənlik.
Həsən Mirzə, nə sənlikdi, nə mənlik,
Allah verib o yerlərin payını.

Təzədən qayıdaq Dərələyəzə,
Nə dərdin, nə də bir məlalın olsun.
Əyilib gözündən içdiyin bulaq,
Ən böyük dövlətin, cəlalın olsun.

Şirindi hər kəsə doğma yuvası,
İlqarı, imanı, əhdi, vəfası.
O yerin, o yurdun suyu, havası,
Yağın-balın olsun, zülalın olsun.

Çay kimi çağlayar, meh kimi əsər,
Sözdədi gözəllik, sözdədi kəsər.
Ürəkdən, könüldən yazdığım əsər,
Ana südü kimi halalın olsun.

**Zəlimxan YAQUB,**
**Xalq şairi**

# Qərbi Azərbaycanın etno-mədəni mühitinin elmi tədqiqi

**Qarabağ uğrunda Vətən müharibəsinin tarixi Zəfərlə başa çatmasından sonra Qərbi Azərbaycana qayıdış missiyasının aktuallıq qazanması, hərəkatın dövlət səviyyəsində dəstəklənməsi cəmiyyətin bütün sferalarını bu ümummilli cəbhəyə səfərbər olmağa, erməni faşizmi ilə mübarizəmizin növbəti mərhələsinə öz töhfəsini verməyə səsləyib.**

Elm adamları da Ermənistan adlanan Qərbi Azərbaycan torpaqlarının soydaşalrımızın zaman-zaman yaşadıqları əzəli türk torpaqları olduğunu sübuta yetirmək, onların XX əsr boyu erməni millətçilərinin törətdikləri deportasiya və soyqırımı ilə üzləşdiklərini, 1988-ci ildə isə doğma yurdlarından amansızlıqla qovulduqlarını dünya ictimaiyyətinə çatdırmaq üçün tarixi qaynaqları yenidən araşdırır, faciə qurbanlarının çəkdikləri müsibətləri sistemləşdirib təkzibedilməz qaynağa çevirirlər. AMEA Naxçıvan Bölməsinin alimləri bu yöndə xüsusi fəallıq göstərirlər.

Bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun folklorşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Aytən Cəfərovanın ərsəyə gətirdiyi "Qərbi Azərbaycanın etno-mədəni mühiti: tədqiqlər, xatirələr, faktlar" adlı birinci kitabı bugünlərdə işıq üzü görüb. Kitabda alimin son vaxtlar mövzu ilə bağlı topladığı, təhlil edib sistemləşdirdiyi materiallar toplanıb. Tədqiqat əsəri Qərbi Azərbaycana Qayıdış Konsepsiyasına elmi dəstək baxımından Naxçıvan Muxtar Respublikasında ilk addımdır.

Yeni nəşrin elmi redaktoru və ön sözünün müəllifi Qərbi Azərbaycan İcmasının rəhbəri, deputat, filologiya üzrə fəlsəfə doktoru, dosent Əziz Ələkbərlidir. Əsərin rəyçiləri filologiya elmləri doktoru, professor Mahirə Hüseynova, filologiya elmləri doktoru, professor İbrahim Bayramov və filologiya üzrə fəlsəfə doktoru, dosent Zülfiyyə İsmayıldır. Əsər "Heydər Əliyev İli" çərçivəsində Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə elmi töhfə olaraq işıq üzü görüb.

Kitabın əvvəlində Ulu öndərin Qərbi Azərbaycan həqiqətinə işıq salan aşağıdakı sözləri müəllifin axtarış və elmi qənatlərinin ümumi axarını və ruhunu ifadə edir: "Əgər tarixi faktları araşdırmalı olsaq, onu da xatırlatmalıyam ki, indiki Ermənistan ərazisi vaxtilə Azərbaycan torpaqları idi. Bir vaxtlar bu yerlər Azərbaycana məxsus olmuş, lakin 1918–1920-ci illərdə Ermənistana keçmişdir. Bir sözlə, tarixə müraciət etməli olsaq, onda görərik ki, Ermənistan Azərbaycana çox şey qaytarmalıdır".

Prezident İlham Əliyevin dünyaya bəyan etdiyi "Qərbi Azərbaycan bizim torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir" həqiqəti kitabda əksini tapan zəngin materiallarla bir daha sübuta yetirilir. Bundan əlavə, Qərbi Azərbaycan İcmasının fəaliyyət proqramı olan Qayıdış Konsepsiyasından irəli gələn vəzifələrə işıq salan kitabın ideya və məzmununu ön sözdə İcmanın sədri, deputat Əziz Ələkbərli belə səciyyələndirir: "Folklorşünas, dosent Aytən Cəfərova Qərbi Azərbaycandan qaçqın düşən, Naxçıvan Muxtar Respublikasının müxtəlif guşələrində məskunlaşmış Qərbi azərbaycanlılarımızla görüşlərindən əldə etdiyi nəticə-təəssüratları ümumiləşdirərək elmi mənbə kimi təqdim edir. Mən bu kitabı, eyni zamanda, Qərbi Azərbaycana qayıdış uğrunda ümumxalq mübarizəsinin tərkib hissəsi hesab edirəm".

Qərbi Azərbaycan mövzusuna həsr edilmiş bu qiymətli əsərin birinci bölməsində müəllif Qərbi Azərbaycan eli, xüsusilə, Zəngəzur haqqında ümumnəzəri baxışları təqdim edib. Alim Zəngəzur folklorunun materialalrı əsasında xalqımızın milli-etnik dəyərlərini, Vətən, el-oba məhəbbəti və torpağa bağlılıq duyğularını, qaçqın soydaşlarımızın bəlalı taleyi və ağrılı yaşantılarını geniş spektrdə araşdırıb və təhlil edib. "Zəngəzur bayatılarında milli-etnik tarixi yaddaş", "Baharlıdan başlayan söz yaddaşı", "Dərələyəz adlı ünvanım Vətəndir...", "Atamın gorgahı, babamın yurdu, əlimin əməyi bəs kimə qaldı?!", "Baxmaqdan savayı gözə nə qaldi...", "Vətən nisgilli xatirələr", "Sazım, sözüm Vətəndədir" kimi arşdırma mövzularının hər birində Azərbaycan xalqının ata-baba torpaqlarında yaşadıqları və yaratdıqları mənəvi sərvət, dəyər və düşüncələr geniş əksini tapıb.

Müəllif haqlı olaraq zəngin, tükənməz mənəvi xəzinəmizi oğru xislətli ermənilərin necə mənimsədiklərinə də diqqət yetirib, konkret nümunələr əsasında bu etnoplagiatlığı ifşa edib. Alim konkret faktlar əsasında ermənilər tərəfindən sözbəsöz tərcümə edilərək mənimsənilən mənəvi sərvətimizdən bəhs edərək yazır: "Qeyd edək ki, "Can, gülüm", "Gülüm, hey" rədifli nəğmələr Azərbaycan türklərinin məişət və mövsüm mərasimi nəğmələrinə məxsusdur. Ermənilərin dəyişərək özününküləşdirmək istədikləri, lakin pərakəndə bir mətn yaratdıqları bu nümunədəki sözlərdən hansıların Azərbaycan dilinin lüğət tərkibinə aid olduğunu görmək çətin deyil: can, yar, şamama, Araz və s. Ermənilər tarixən torpaqlarımıza göz dikdikləri kimi, mədəniyyətimizə, dəyərlərimizə, dilimizə də göz dikiblər".

Müəllif həm də Qərbi Azərbaycan İcmasının Ordubad üzrə nümayəndəsi kimi, doğma el-obalarından zorla didərgin salınıb Naxçıvan Muxtar Respublikasının müxtəlif ərazilərində məskunlaşmış Qərbi Azərbaycandan olan əhali ilə görüşlərində onlardan topladıqları acılı-şirinli xatirələri, söhbətləri, yaradıcılıq nümunələrini kitaba daxil edib. Qərbi Azərbaycanla bağlı tarixçilərin, tədqiqatçı alimlərin araşdırmaları ilə yanaşı, deportasiyaya məruz qalmış şəxslərin həyat hekayəsinin işıqlandırılması da əsərin məzmununu zənginləşdirməklə bərabər, inandırıcılıq gücünü də artırır və nüfuzetmə dairəsini genişləndirir.

Qərbi Azərbaycandan olan informatorlardan toplanılmış materiallar əsasında hazırlanmış kitabın bu bölməsində müəllif Kəngərli rayonunun Çalxanqala kəndində məskunlaşmış Kamil Həsənovun ailəsinin düşmənlərin onlara çəkdirdikləri əziyyətdən, zillətdən bəhs etmiş, müsahibinin sazlı-sözlü qələmindən çıxmış yurd nisgilli nəğmələri, Vətən həsrəti hayqıran şeirlərini də dövriyyəyə gətirib. Xalq sənəti ilə bağlı yaradıcılıq örnəkləri də əsərdə öz təsvirini tapmış, didərgin salınmış əhalinin yaratdığı və yaşatdığı dəyərlər elmi təhlildən keçirilib.

Əsərin ikinci və üçüncü bölmələri toplanmış xalq yaradıcılığı nümunələrinə həsr edilib. "Şifahi yaradıcılıqda tarixi yaddaş" başlıqlı bu bölmədə xalqın Vətən torpağına məhəbbətini, həsrət və nisgil duyğularını ifadə edən müxtəlif janrlı nümunələrdən bəhs edilib. "İnanclar, sınamalar, qarğışlar", "Ocaqlar və pirlərlə bağlı andlar", "Mərasimlər, adət-ənənələr", "Bayatılar" başlıqları altında




verilən nümunələr Qərbi azərbaycanlıların yaşadıqları torpaqların əzəli sakinləri olduqlarını təkzibedilməz şəkildə isbata yetirir. "Sazlı-sözlü Gomurdan seçilənlər" başlıqlı üçüncü bölmədə isə Qərbi Azərbaycanın didərgin el şairlərinin yaradıcılıq nümunələri yer alıb. Aşıq Kamil Teymuroğlunun, Şahlar Mərdanoğlunun və Bəylər Məmmədovun əsərlərindən daxil edilmiş seçmələr Vətənə, elə məhəbbət duyğuları ilə köklənib.

Aytən Cəfərovanın yurd sevgisi elmi fədakarlıqla ərsəyə gətirdiyi "Qərbi Azərbaycanın etno-mədəni mühiti: tədqiqlər, xatirələr, faktlar" kitabı "Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının" gerçəkləşməsinə ictimai dəstəyi təmin edən layiqli elmi töhfədir.

*Mahirə HÜSEYNOVA,*
*ADPU-nun prorektoru, professor,*
*Zülfiyyə İSMAYIL,*
*AMEA Naxçıvan Bölməsinin aparıcı elmi işçisi, dosent*

Təqvim yada salır

# Özü ədalətli, sözü fəzilətli idi

**Tez-tez yad etdiyim, kitablarını dönə-dönə oxuduğum, ali məktəbdə təhsil aldığım illərdə mühazirələrini dinlədiyim sevimli müəllimim idi filologiya elmləri doktoru, professor Qulu Xəlilov. Unudulmaz ədəbiyyatşünas alimin doğum və anım günləri noyabr ayına təsadüf edir.**



O, 20 noyabr 1930-cu ildə Qərbi Azərbaycanın Zəngəzur mahalında – Qarakilsə (Sisian) rayonunun Qızılcıq kəndində anadan olmuşdur. Ömür kitabının sonrakı səhifələri isə Qarabağda, Bakıda yazılıb. Ağdamda fəhlə-gənclər məktəbində, sonra isə Bakıda ADU-nun jurnalistika fakültəsində oxumuşdur. İlk iş yeri "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyası olub. Namizədlik və doktorluq dissertasiyaları yazıb. 30-a yaxın kitabın, mindən çox ədəbi-bədii, tənqidi, publisistik məqalənin müəllifidir. Ömrünün sonuna kimi BDU-nun jurnalistika fakültəsinin professoru idi. Xidmətlərinə görə "Əməkdar elm xadimi" adına və bir neçə medala layiq görülmüşdü.

Bütün bunlar Qulu müəllimin olduqca qısa bioqrafiyasıdır. Əslində, onun fədakar əməyinin, tənqidçi cəngavərliyinin, vətəndaş cəsarətinin və yanğısının bəhrəsi olan zəngin ədəbi irsindən, xarakterinin bütövlüyündən saatlarla, günlərlə danışmaq olar.

Dünya şöhrətli cərrah İbrahim Topçubaşova məxsus fikirdir ki, yalançı tərif insanı qəbiristanlığa yaxınlaşdırır, qərəzsiz tənqid isə dost hədiyyəsidir. Bəlkə də elə buna görə Qulu müəllimin müasirləri heç vaxt onun tənqidindən inciməz, əksinə, faydalanmağa, nəticə çıxarmağa çalışardılar. Əslində, o zamanlar ədəbi tənqid öz hakimiyyətində idi, indiki kimi tost ənənəsinə çevrilməmişdi. Bir də hər kəs gözəl bilirdi ki, Qulu Xəlilov ədəbiyyatımızın keşiyində dayanan dürüst və cəsarətli qələm sahibidir. Gözündən zəif yazılar yayına bilməz. Təbii ki, Qulu müəllim uğurlu əsərlər barəsində də öz sözünü vaxtında deməyi bacaran xeyirxah bir tənqidçi idi. Onun tərifinə tuş gəlmək, ədəbiyyatda yerinə düşmək idi.

Hər dəfə kitablarını gözdən keçirdikdə özüm üçün yeni-yeni mövzular tapıram. Bu dəfə diqqətimi Qulu Xəlilovun tarix və tarixi şəxsiyyətlərə, bu istiqamətdə yazılan bədii əsərlərə münasibəti cəlb etdi. Ötən əsrin ortalarında, eləcə də 80-ci illərində qələmə aldığı düşüncələrini oxuduqca, bu gün də necə müasir və aktual olduğunun fərqinə varıram. Düşünəndə ki, bu fikirlər oxucuya sovet dövründə çatdırılır, məsələ aydınlaşır. Qadağaların hökm sürdüyü bir dönəmdə "gəlin, tariximizi tam və mükəmməl şəkildə araşdıraq və üzə çıxardaq", – deyən Qulu Xəlıilov hansı mətləblərə toxunub. "Tariximizə ayıq və parlaq ağılla yanaşan" ədiblərin və əsərlərin adlarını çəkir.

Həqiqətən də, Qulu Xəlilovu diqqətlə oxumaq və dərk etmək bir universitet təhsilinə bərabərdir. Unudulmaz tənqidçimiz tarixi mövzuda yazılan əsərlərdə şəxsiyyətlərin obrazlarını, fəaliyyətlərini birtərəfli, yanlış mövqedən işıqlandırılmasına dərhal öz münasibətini bildirərdi. İstəkli müəllimim, tarixi romanlar müəllifi Əzizə Cəfərzadə həmişə Qulu Xəlilovun bu xidmətini yüksək dəyərləndirərdi. Əzizə xanımın "Bakı-1501" romanı çapdan çıxdıqdan sonra müəllifi təqdir və tənqid edən də ilk dəfə Qulu müəllim oldu. Cəmi 37 il ömür sürmüş, 14 yaşında hakimiyyət başına gəlmiş Şah İsmayıl Xətai (1500-1524) çox güclü, qüdrətli xarakterə malik olan ağıllı bir cəngavər idi. Parçalanmış Azərbaycanı vahid bir dövlət tərkibində birləşdirən, tarixdə ilk dəfə Azərbaycan dilini dövlət dili elan edən, bir çox Avropa ölkələrinə bu dildə notalar verən kamil şəxsiyyətlə bağlı iynə ucu boyda səhvi də bağışlamazdı Qulu Xəliov. Qətiyyətlə bildirirdi ki, Əzizə Cəfərzadə kimi zəngin təcrübəli, bilikli, savadlı bir yazıçının əsərində qüsur olmamalıdır. Yadımdadır, bir dəfə Əzizə xanımdan soruşdum ki, bəs siz Qulu Xəlilovdan incimədiniz, axı, siz bədii əsər yazıbsınız, sizin də öz əlavəniz, fərziyyəniz olmalı deyil ki? Əzizə xanım özünəməxsus şəkildə – xəfifcə gülümsəyərək dedi ki, Qulu Xəlilov kimi bir nəhəngin əsərimi axıracan oxuması, rəyini bildirməsi, təriflməsi, tənqid etməsi mənim üçün şərəf idi: "Qulu Xəlilov bizim ən xeyirxah və ciddi, obyektiv mövqeyə malik hamimiz olub. Əslində o, bizi qoruyurdu, xəbərdarlıq edirdi ki, hər bir sözümüzə məsuliyyətlə yanaşaq, gələcəyə zəif əsərimiz qalmasın. Nəsillər bizi qınamasın. Həmişə ona minnətdar olmalıyıq, bizi bu sayaq qoruya bilirdi…"

Onun 1974-cü ildə yazdığı "O, həssas və qayğıkeş idi…" adlı bir xatirəsi yada düşür. Unudulmaz şairimiz Səməd Vurğuna həsr olunmuş bu yazıda diqqəti mi 1953-cü ildəki ədəbi mühitin rəngi çəkir. Həmin xatirədən bir ləçək: "Yazıçılar İttifaqında şeirimiz barədə mənə məruzə etmək tapşırılmışdı. Universitetin son kursunda oxuyurdum… Mənə söz verilən kimi məruzəyə başlamamışdan dedim: "Xahiş edirəm ki, deyəcəyim fikirlərin bəziləri hörmətli sənətkarların xoşuna gəlməsə, məni bağışlasınlar, çünki mən fikirlərimi elə qurmuşam ki, onları yumşaltmaq mümkün deyil". Bundan sonra mən gözaltı Səməd Vurğunu süzdüm. O, çox mənalı və mehriban baxışlarla mənə nəzər salıb gülümsədi. Bu mehribanlıqdan daha da cəsarətləndim. Həmin məruzədə Ə.Vahidə də çox yer vermişdim. Bunun üstündə bəzi şairlər mənə hücum etdi. Vahidin adını çəkməyim bəzilərinin xoşuna gəlmədi. Səməd Vurğun məni bu hücumlardan xilas eləyib dedi:

– Yoldaşlar, əgər bu gün Əliağa Vahidin kitablarını əl altından baha qiymətə alırlarsa, bu, bizi düşündürməlidir. Vahidin adını Yazıçılar İttifaqında çəkməyi qadağan etmək asandır, amma onu xalqın qəlbindən silmək çətindir. Əgər bu gün xalq Vahidi daha çox oxuyursa, bu o deməkdir ki, biz hələ Vahiddən zəif yazırıq. Buna görə də mən, cavan oğlanın Vahidə belə hörmətlə yanaşmasını bəyənirəm.

Zalı gurultulu alqışlar bürüdü. Müşavirə qurtardıqdan sonra Səməd Vurğun "Azərbaycan" jurnalının redaktoru Əli Vəliyevi çağırıb dedi: – Əli Qaraoğlu, xahiş edirəm ki, bu məruzəni elə beləcə də çap edəsən".

Qulu Xəlilovun məhəbbət və ehtiramla xatırladığı və özünün ustadı, müəllimi adlandırdığı şəxsiyyətlərdən biri də tənqidçi və yazıçı Mehdi Hüseyn olub. Onun bir etirafını xatırlayaq: "O, sanki sənətin, ədəbiyyatın barometri, ölçüsü idi. Prinsipiallığın, cəsarətin zirvəsində dayanırdı. Onun sağlığı bizdə arxayınçılıq və narahatlıq yaratmışdı. Arxayın idik, ona görə ki, harada ədəbiyyatın mənafeyinə bir zərər toxunsa, Mehdi Hüseyn dərhal bir qartal kimi ora şığıyardı. Narahat idik, ona görə ki, hamı fikir söyləyəndə, ondan ehtiyat edirdi. Onun obyektivliyindən, cəsarətindən çəkinirdik…" Bir görün, bu etirafı kim edib? – Özü də fikir cəngavəri olan Qulu Xəlilov.

Uzaqgörən tənqidçi və yazıçı idi Qulu Xəlilov. Müasirlərinin portretlərini də elə hörmət və ehtiramla yaradıb ki, bu gün onlar da artıq tarixi şəxsiyyətdirlər. Xalqımızın ləyaqətli övladları olan Feyzulla Qasımzadə, Həsən Əliyev, Mir Cəlal, Həmid Araslı, Cəfər Cəfərov, Məmməd Cəfər, Əli Sultanlı, Əli Vəliyev, Ziya Bünyadov, Kamran Dadaşoğlu, Ziyəddin Göyüşov, Bəkir Nəbiyev və digərləri.

"Təbiətin dərdi" adlı tədqiqatında akademik Həsən Əliyevin portretini görün necə ustalıqla və dürüst yaradıb: "Azərbaycan təbiətinin dərdlərinin diaqnozunu dəqiq qoyan alim. Həsən Əliyev bir təbib və mahir torpaqşünas kimi flora və faunamızın, bütünlükdə təbiətimizin mənzərəsini dəqiq çəkib. Onun bir səcdəgahı var: Azərbaycan torpağı! Ulu bir qəhrəmanı var: Azərbaycan təbiəti! Bir gözəllik ilahəsi var: Azərbaycan! O, dünyanın ən ucqar guşələrində olanda da, bu barədə fikirləşir."

Tarixi şəxsiyyətlərin obrazını olduğu kimi yaratmağı və onları həmişə ehtiramla anmağı tövsiyə edən Qulu Xəlilov özü də indi tarixin unudulmaz simalarından birinə çevrilib.

***Flora XƏLİLZADƏ,***
***Əməkdar jurnalist***

Güney xatirəsi

**1991-ci ildə SSRİ dağılandan sonra, ikiyə bölünən Azərbaycanın arasındakı sərhədlər söküləndə mən də həsrətində olduğum Cənubi Azərbaycanın və o taydakı qohumlarımızın görüşünə tələsdim. Getdim, amma elə yolun başlanğıcında qohumlar yaddan çıxdı… Çünki ilk istəyim qadağan olunmuş radiodalğalardan və kassetlərdən səsini eşitdiyim Məhəmmədhüseyn Şəhriyarın sorağını tutmaq oldu. Elə o taya güzar saldığım ilk andan da yolboyu onun misraları qulaqlarımda səslənir, məni rahat buraxmırdı. Axı, Cənubi Azərbaycanımız mənim aləmimdə şairin "Heydərbabaya salam" poeması ilə canlanmışdı…**

# Şəhriyarın məzarı önündə düşüncələr



*Heydərbaba, ildırımlar çaxanda,*
*Sellər, sular şaqqıldayıb axanda,*
*Qızlar ona səf bağlayıb baxanda,*
*Salam olsun, şövkətizə, elizə,*
*Mənim də bir adım gəlsin dilizə…*

Bu, həsrət çəkən Güney Azərbaycanının səsi, çağırışı idi. O taylı-bu taylı ürəklərdə yaşayan ustadı yad etmədən necə ayaq basaydım bu doğma yerlərə?! Urəyimdə dahi Şəhriyara bir nidam vardı: Doğma ikən qərib olduğun torpaqda ürəyində min bir arzun, diləyin uyusa da, ölümünə inanmırıq, ustad! Sənin qələmin baş daşına çevrilib, söz qalasına dönüb:

*Biz bir dərya qan vermişik,*
*Zindanlarda can vermişik,*
*Qırx nəsli qurban vermişik,*
*Ki, qurdu biz qova bilək,*
*Qurdun şərrin sova bilək…*

Nəhayət, o taydakı Azərbaycanda ilk ziyarətim də ulu Şəhriyarın məzarı oldu. Onun məzarüstü büstünün önündə durdum və ixtiyarsız olaraq bu misralar səsləndi ürəyimin dərinliyində:

*Heydərbaba, sənin könlün şad olsun,*
*Dünya varkən ağzın dolu dad olsun,*
*Səndən keçən tanış olsun, yad olsun,*
*Deynə mənim şair oğlum Şəhriyar,*
*Bir ömürdür qəm üstünə qəm qalar.*

Ulu Şəhriyar adının çırağında ölümlə, əbədiyaşar ölümlə, ölümü əbədi yaşadan Şəhriyarın ölümü ilə göz-gözə dayanmağın, həmsöhbət olmağın nə qədər ağır sızıltılı olduğunu yaşadım düz 32 il əvvəl. Azərbaycanın ayrılmış hissəsini gəzdikcə səsi qulağımdan getmədi. O kədərli, Vətən həsrətli, yurd yanğılı səsi məni rahat buraxmadı. İki yerə bölünən qəlbin döyüntüsü olan misralar, Vətənin köksünə vurulan yaraların sızıltıları, ulu Şəhriyarın başımız üstündə uçan ruhunun pıçıldadığı misralar ardıcıl səsləndi qulaqlarımda:

*Qaçdıq, üzləşdik Arazda,*
*Yenə qəmlər qalaq oldu,*
*Yenə gözlər bulaq oldu.*
*Yenə qardaşsayağı sözlərimiz*
*Bir sayaq oldu…*
*Tor quran ovçu atın qovmada sındı*
*Geri qaldı, özü getdi, toru qaldı…*

Şair qəlbinin ərintiləri olan bu misraların ağrı-acısı məzarüstü əksdən qəmli-qəmli boylanan gözlərinə hopmuşdu el nəğməkarının. Əksdən boylanan Vətən oğlu ilə həmsöhbət oldum o gün…

Axı, niyə tale sənə bu günləri çox gördü?! Axı, sən bu günləri hamıdan çox arzuladın, hamıdan çox alışdın, yandın bu günlər üçün. Qardaşla bacının, ata ilə övladın, qohum-əqrabanın qovuşacağı günün həsrətini çəkdin, uzaq düşən el ilə ağlamaq istədin. Bu həsrət içində də yana-yana köz oldun. Oduna-alovuna, qəlbində çatdığın həsrət tonqalına bütöv Azərbaycan övladları yetmədi, qızına bilmədi. Közünə-közərtinə pənah gətirdik. Süleymandan, Nuhdan qalan dünyanın bu Zəfərli günlərini göz yaşları içində, sevinclə yaşadıq səni anaraq.

İllər sonra yenə ulu Şəhriyarın o qəmli şəklinə baxıb düşünürəm… Bu ruhdumu, canlı insandırmı, nədir, ya Rəbb! Sükut da belə dil açıb danışarmış! Cansız sətirlər də dinərmiş?!

Son olaraq onu uyuduğu torpağa bir daha tapşırıb demək istəyirəm. Şəhriyar həsrətli, Rübabə məlahətli Təbrizim, qoynunda tarixi yaşadan uyuyur. Xoşbəxtsən! O məzar deyil, ulu Şəhriyarın evidir səndə! Şəhriyar sənindir, sən Şəhriyarın! Onu hifz elə! Nə vaxtsa dönəcəyimiz evimizin səmti, ən yeni tariximizin ünvanı, ən ucası – sənət incisidir!

***Rahib QƏRİB***
***XQ***

Yeni tamaşalar

# "Zamanın rüzgarı"

## *Mingəçevir Dövlət Dram Teatrı Xeyrəddin Qocanın bu pyesini tamaşaya qoyub*



**...Mirzə Cəlilin sözləridir: "...Dostum Sabir demişkən, yaxşıya yaxşı, pisə pis, əyriyə əyri, düzə düz demişik. Təsadüfi deyil ki, "İrşad" qəzeti bizim işimizi "mollanəsrəddinçilik" adlandırmışdır. Molla əminin öldürüldüyü (gülür) barədə şayiə yayılanda böyük Üzeyir Hacıbəyov dərin inamla yazdı: "Molla Nəsrəddini öldürmək olsa da, mollanəsrəddinçiliyi öldürmək mümkün olmaz".**



Mirzə Ələkbər Sabir cavab verir ki, "Bizim xarici və daxili düşmənlərimiz mövcuddur, əzizim Mirzə! Həm siyasət və iqtisadiyyatda, həm ideologiya və ədəbiyyat aləmində, həm də dil və maarif sahəsindəki mərdimazarlıqlardır Vətənin düşmənləri! Qoy, onlar papaqlarını qarşılarına qoyub yaxşı-yaxşı fikirləşsinlər".

Bu fikirlər tamaşanın əsas leytmotivini təşkil edir və Mirzə Cəlil də, Sabir də, Əbdürrəhim bəy Haqverdiyev də cəmiyyətdəki çatışmazlıqları aradan qaldırmaq üçün olmazın məhrumiyyətlərə qatlaşırlar. Lakin onlar həyatdan getdikdən sonra da cəmiyyətdə bəzi nöqsan və eybəcərliklər qalmaqdadır. Təsadüfi deyil ki, bu da yazıçı Xeyrəddin Qocanı daim narahat etdiyindən, belə maraqlı bir əsəri ortaya-ərsəyə gətirmişdir.

Doğrudur, yazıçı əvvəllər də bu mövzuya müraciət etmişdir və onun vaxtilə "Hərənin öz payı..." pyesi Akademik Milli Dram Teatrında müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur. Müəllif həmin pyesində də Mirzə Cəlil, M.Ə.Sabir, Ə.Haqverdiyev obrazlarını birlikdə səhnəyə çıxarmış, onların maarif yolunda nələr etdiklərini tamaşaçılara çatdırmışdır.

"Zamanın rüzgarı" dramında da hər üç obraz səhnədədir. Bu tamaşada, əsasən, böyük Mirzə Cəlilin həyatı, "Molla Nəsrəddin" jurnalının "başına gətirilən oyunlar", çətinliklər göstərilir, o zamanın – cahillik, savadsızlıq, avamlıq dövrünün "qara küləklərinin" əsdiyi bir vaxtda unudulmaz maarifçilərimizin, yazıçılarımızın cahanşümul mübarizələrindən bəhs edilir. Yazıçı keçmiş günləri bir daha canlandırmaqla yanaşı, müasir dövrümüzün çatışmazlıqlarını da "qamçılayır". Bütün bunlar Ə.Haqverdiyevin sözləri ilə dilə gətirilir: "Bizim üstünlüyümüz ondadır ki, nöqsanları, şəri, eybəcərliyi açıb-tökdüyümüz kimi, onların aradan qaldırılması yolunu da göstəririk. Biz "nicat", "nicat yolu", "nicat vasitələri" barədə müxtəlif mülahizələr yürütməliyik, necə ki, yürüdürük, bu nicat, əsasən, tərəqqidə, məktəbdə, maarifdə, mədəniyyətdədir".

Tamaşada M.Ə.Sabirin misraları, Mirzə Cəlilin əsərlərindən səhnələr də canlandırılır. Necə deyərlər, "gülüş eybəcərliyə qarşı çevrilmiş olsa da, əsas məqsədi gözəllikdir. Bəşəriyyət gülərək pis əməllərindən, çirkinlikdən uzaqlaşır, gözəlliyə yaxınlaşır". Təsadüfi deyil ki, tamaşa anşlaqla keçmişdir. Bu da Mingəçevir Dövlət Dram Teatrının yaradıcı kollektivinin gərgin məşqlərinin nəticəsində mümkün olmuşdur.

Rejissor Vüsal Mehrəliyev müəllifin pyesdəki ali məqsədini gözəl anlamış, baxımlı, maraqlı və bitkin səhnə əsəri ilə teatrsevənləri sevindirmişdir. Quruluşçu-rəssam Pakizə Əbilbəyli, musiqi tərtibatçısı Elnur Rəsulov, rejissor assistentləri İlahə Qasımova, Çiçək İsmayılzadə, rəqslərin quruluşçusu Eyvaz Əliyevdir.

Mirzə Cəlili teatrın təcrübəli aktyoru Aydın Quliyev canlandırır. O, obrazın ruhunu çox gözəl duyduğundan, demək olar, hər hərəkəti yerindədir. Mirzə Cəlil tamaşanın başlanğıcında əlyazmalarını sobada yandırarkən, ömür-gün yoldaşı Həmidə xanımın "Yandırdıqların nədir, Cəlil?" – sualına: "Əlyazmalarımdır. Evdən odun qurtarıb, qoy, evimiz isinsin", – cavabını verməklə çətin həyat şəraitini tamaşaçılara olduğu kimi çatdıra bilir. Həmidə xanımın "Mirzənin əlyazmalarını yandırması üsyandır! Haqsızlığa, ədalətsizliyə, nadanlığa, cahilliyə, fanatizmə qarşı bir üsyan! Bu, keşməkeşli ömrün tale dramının acı səhnəsidir! İctimai mühitə etirazdır!" – sözləri isə tamaşaçıların qəlbini acıdır.

Yeri gəlmişkən qeyd edək ki, Həmidə obrazını oynayan aktrisa Vüsalə Quliyeva tamaşada Mirzə Cəlilin – Aydın Quliyevin fikirlərinə əlavə rəng qatır, tamaşaçılarda böyük maraq oyadır. Açıq-aydın görünür ki, hər iki rolun ifaçısı Mirzə Cəlilin və Həmidə xanımın zamanın məhrumiyyətlərinə necə sinə gərdiklərini gözəl anlamışlar.

Həmidə xanımın "Mirzə, bəy qızı olduğum üçün məni səsvermə hüququndan məhrum etmədilərmi? Bizim mənzilimizdə, "Molla Nəsrəddin"in çap olunduğu "Qeyrət" mətbəəsində axtarışlar aparılmadımı, jurnalın nəşri dəfələrlə dayandırılmadımı, ayrı-ayrı nömrələr müsadirə edilmədimi? Jurnalı məhkəmə məsuliyyətinə cəlb etmədilərmi? Tiflis qubernatoru səni Metex qalasına salmaqla hədələmədimi? – fikirlərini həyəcanla, yana-yana söyləməsi tamaşaçıları dərindən düşünməyə vadar edir. Salondakı hər kəs o zamanın rüzgarının çox "soyuq" və kəskin olduğunu hiss edir.

Ə.Haqverdiyev (aktyor Şıxlı Yaqubov) səhnəyə "Molla Nəsrəddin demişkən, "məktəb, məktəb" – deyə, işi bitmiş saymaqla "Fatıya tuman olmaz", yəni, məqsədə çatmaq olmaz. Çarə qərinələrdən bəri xalqın canına daraşmış zalım və tüfeyli ağalara divan tutmaqda, mikrobları millətin bədənindən kənar etməkdədir." – sözləri ilə çıxır. Şıxı Yaqubov Ə.Haqverdiyev obrazında oxşar və canlı görünür, ona görə də ilk dəqiqlərdən diqqəti cəlb etdi.

M.Ə.Sabir rolunda isə aktyor Paşa Salmanov bənzərliyi ilə, oynadığı obrazın millət dərdi çəkməsi ilə tamaşaçıların alqışını qazandı. Kefli İskəndər rolunda aktyor Hüseyn Mustafayev, Hacı Həsən rolunda aktyor Qabil İbrahimli, Vəli xan rolunda aktyor Arif Əhmədov, Novruzəli rolunda aktyor Asim Məmmədov istedadlarını yüksək səviyyədə nümayiş etdirdilər. Epizodik rolların və kütləvi səhnələrin oyunçuları Xalq artisti Ella Yaqubova, Cavidan Abdullayev, Şəmil Əliyev, Rəvan Qiyaszadə, Rövşən Zeynallı və başqaları da gözəl sənət nümunələri göstərdilər.

Böyük ziyalılarımızın, yazıçılarımızın maarifçilik uğrunda mübarizə apardıqları dövrdən bəhs edən belə səhnə əsərlərinə teatrsevənlərin rəğbəti təqdirəlayiqdir. Tamaşanın sonunda mollanəsrəddinçilər Məmməd Səid Ordubadinin, Əli Nəzminin, Əbdülrəhim bəy Haqverdiyevin, Ömər Faiq Nemanzadənin, Oskar İvanoviç Smerlenqin, Məmmədəli Mustafazadə Sabitin, Səməd Mənsurun, Bayramalı Abbaszadənin, Cafər Cabbarlının, Əzim Əzimzadənin, Süleyman Məlikovun, Əliağa Vahidin, Kərbalayi Əli Babayevin, Nəsrulla Qəmbərovun, Nuşirəvan Kənanovun fotolarının gur işıq altında təqdim olunması, onların da xatırlanması, hər biri haqqında bir cümləlik məlumat verilməsi çox bəyənildi.

Nəhayət, tamaşanın son cümələri səsləndi: "Jurnalın müxtəlif kənd və şəhərlərdə çoxlu fəhlə müxbirləri də vardı. Onlar hamısı bu dünyadan köçmüşdür. Allah hamısına rəhmət eləsin, böyük tarix yazmışlar: "Molla Nəsrəddin" tarixi! Bu, şərəfli və unudulmaz bir tarixdir!"

***TURAL***

Beynəlxalq həyat

# Ərdoğan Almaniyada mühüm müzakirələr aparıb

**İki ölkənin İsrail və HƏMAS arasındakı müharibə ilə bağlı fərqli mövqelərinin olduğu bir vaxtda, Türkiyə Prezidenti Rəcəp Tayyib Ərdoğan cümə günü Almaniyaya səfər edib. R.T.Ərdoğan Berlində Kansler Olaf Şolts və Almaniya Prezidenti Frank-Valter Ştaynmayerlə görüşlər keçirib. Bu barədə "Anadolu" agentliyi məlumat yayıb.**

R.T.Ərdoğan Almaniya Kansleri Olafla Şoltsla birgə keçirdiyi mətbuat konfransında deyib ki, Yaxın Şərqdəki münaqişə yalnız iki dövlətin tanınması ilə həll oluna bilər. O qeyd edib ki, gündən-günə kəskinləşən bu münaqişə bir daha Fələstin probleminin 1967-ci il sərhədləri daxilində iki dövlət prinsipi əsasında həllinin qaçılmaz olduğunu təsdiqləyir: "Türkiyə olaraq məqsədimiz israillilərlə fələstinlilərin yan-yana yaşadığı sülh və əmin-amanlıq mühiti yaratmaqdır".

Türkiyə lideri, həmçinin bildirib ki, o, ölkəsinin Avropa İttifaqına üzvlük prosesinin yenidən gücləndirməsini istəyir. Ankara bu istiqamətdə Almaniyanın səylərinə əhəmiyyət verir. Prezidentin sözlərinə görə, Türkiyə rəsmiləri ölkə vətəndaşlarının viza məsələsinin sürətləndirilməsini arzulayırlar və bu istiqamətdə lazımi addımlar atırlar.

Türkiyə dövlətinin başçısı Ankaranın apardığı xarici siyasət kursunda ayrı-seçkiliyə yol verilmədiyini xüsusi qeyd edib: "Biz taxıl məsələsində Avropa ilə Afrika arasında fərq qoymadıq. Qara dəniz taxıl dəhlizindən nəql olunan ərzağın 40 faizi Avropaya, 14 faizi Afrikaya, yalnız 14 faizi Türkiyəyə çatdırılıb".

Almaniya uzun müddətdir ki, Türkiyəni vacib tərəfdaş kimi görür. O, NATO üzrə mühüm müttəfiqidir, həm də Avropaya qaçqın və miqrant axınına nəzarət etmək istiqamətində vacib rol oynayır. Qeyd edək ki, Kansler bu məsələdə güclü daxili təzyiqlərlə üzləşir.

Ancaq son illərdə iki ölkə arasında müxtəlif səbəblərdən gərginliklər olub. Bəzi təhlilçilərin fikrincə, bu səfər oktyabrın 7-də HƏMAS-ın İsrailə hücumundan sonra baş verən hadisələrlə bağlı iki ölkənin mövqeləri arasında artan fərqin kölgəsində qalır.



Almaniya İsrailin sadiq müttəfiqidir və atəşkəs çağırışlarına qarşı çıxır. Eyni zamanda, Almaniya Qəzza zolağındakı mülki əhaliyə yardım etmək üçün "humanitar fasilələr"i müdafiə edir və münaqişənin yayılmasının qarşısını almaq üçün regiondakı digər ölkələrlə əlaqələrini açıq saxlamağa çalışır.

Türkiyə isə İsrailə qarşı getdikcə daha sərt mövqe nümayiş etdirir. Ötən ay R.T.Ərdoğanın İsraili müharibə cinayətləri törətməkdə ittiham etməsindən sonra İsrail Türkiyədəki diplomatlarını geri çağırıb. Daha sonra Türkiyə İsraildən səfirini geri çağırıb.

*M.HACIXANLI*
*"XQ"*

# Makron Ermənistanı silahlandırmaqla "bir güllə ilə iki dovşan" vurmaq istəyir

**Fransa Ermənistanı silahlandırır. Məsələnin siyasi tərəfi aydındır, Paris bölgənin zəif bəndinə çevrilmiş İrəvanı təsir dairəsinə salmaqla regionda hərbi mövcudluğunun əsasını qoymaq istəyir. Bu tendensiyasının ilk əlaməti kimi də "ACMAT Bastion" zirehli texnikasının Ermənistana tədarükünü göstərmək olar. Amma Prezident Emmanuel Makronun geosiyasi menyusunda təkcə Ermənistanı silahlandırmaq bəndi yer almır, onun planında yaxın dostlarına kömək etmək niyyəti də gizlənir. Erməni əsilli fransalı hərbi müxbir Leo Nikolyan bildirir ki, "ACMAT Bastion" zirehli texnikasını istehsal edən şirkətin sahibi Fransa Prezidentinin yaxın dostudur. Deməli, Makron zirehli texnikanı İrəvana göndərməklə bir güllə ilə iki dövşan vurur. Həm erməni diasporunun könlünü alır, həm də ona hakimiyyətə gəlməkdə kömək edən güclü sənayeçi dostlarına qazanç yolu açır.**




Leo Nikolyan erməni mənşəlli müstəqil fransız jurnalistdir. Parisdən gəlib İrəvanda tez-tez təkadamlı mitinqlər təşkil edir, fransız diplomatların "korrupsiyaya" bulaşmaları barədə hayların informasiya məkanında çıxışlar edir. Özünün "YouTube"da kanalı da var və hazırladığı reportajlar Avropanın, Fransanın və Ermənistanın siyasi həyatına həsr olunur. L.Nikolyan növbəti videoyayımı zamanı Fransanın Ermənistana zirehli texnika tədarükü ilə bağlı maraqlı açıqlamalar verib: "Biz Fransadan pendir və hətta şərab da almırıq, lakin "Bastion" zirehli transportyorları alırıq. Gəlin araşdıraq, bunlar necə zirehli transportyorlardır? Sizə deyim ki, polislər və qırmızı beretlilər, habelə "Molotov" kokteyli atacaqları təqdirdə sizi qorumaq üçün bu, pis texnika deyil. Həmçinin pulemyotdan atəş açsalar, bu zirehli transportyorlar sizi qoruyacaq, lakin dronlara qarşı mübarizədə onlar, sadəcə, heç nədir".

L.Nikolyan bildirib ki, "Bastion" zirehli transportyorları Fransada fəaliyyət göstərən "Arquus" ilə birlikdə "Renault Trucks" şirkətində istehsal olunur. "Arquus"un sahibi də Emmanuel Levaşer prezident Makrona çox yaxın şəxsdir. L.Nikolyanın sözlərinə görə, VAB zirehli transportyorlarını əvəz etmək üçün "Bastion" istehsal olunub və Fransa ordusu bu modellərdən çox az sayda alıb: Daha sonra onlar Kot-d'İvuar, Seneqal, Mali, Niger və digər ölkələrə satılıb. "İndi də bildiyiniz kimi, bu, Afrika ölkələri Fransaya şou göstərirlər. Mali və Niger eyni dövlətdir, lakin Fransa onları bölüb və Malinin isə çoxlu qızılı var, ona görə də Fransa talan etmək üçün orada idi. Düşünməyin ki, Fransa soyğunçu deyil. Hər bir ölkənin öz maraqları var".

Fransız jurnalist "Bastion" texnikasının Ermənistana tədarükünün arxasında həm də şəxsi maraqların dayandığını bildirib: "Fransızlar "Bastionları" Afrika ölkələrinə satdılar, amma indi bu ölkələr onları qəbul etmir. İndi "Arquus" şirkətinin sahibi Emmanuel Levaşer prezident Makrona bildirir ki, şirkəti bağlaya bilərlər və nə etmək lazımdır? 2023–2030-cu illər üçün hərbi proqram çərçivəsində bir az sifariş ver". Erməni mənşəli jurnalist daha sonra bildirib: "Bu günə qədər bütün "Bastionlar" Ukraynaya göndərilib və nə baş verib? Onlar məhv edilib. Bu gün hətta Ukrayna da onları qəbul etmir. Zireh zəifdir və dayanıqlı deyil. Afrika üçün yaxşıdır, amma Qafqaz üçün yox. Onlar işləyəcəklər, lakin dağlıq ərazilərdə səmərəli deyil. Yaxşı, biz satınalmalara bir neçə milyon xərclədik. Yeri gəlmişkən, onların təzə və ya işlənmiş olması hələ məlum deyil və bu, başqa sualdır. İndi isə boş yerə pul xərcləyirik, çünki Əliyev nə vaxt istəsə, bir neçə dəqiqəyə bu "Bastionları" məhv edə bilər. Onların peykləri var, hər şeyi görə bilirlər, yeri gəlmişkən, onların peykləri Fransada istehsal olunub, unutmayın".

L.Nikolyan canlı yayımda Fransanın Ermənistandakı səfirliyinin ən çox korrupsiyalaşmış diplomatik nümayəndəlik olduğunu da vurğulayıb: "Mən sizə Ermənistanın üzləşdiyi böyük problem barədə dəqiq məlumat verəcəyəm. Nəzərinizə çatdırıram ki, Ermənistan hökumətinin bir çox üzvləri artıq cənab Olivye Dekotinnidən (Fransanın Ermənistandakı səfiri – red.) viza alıblar". "Bu vizalar tətilə getmək üçün deyil, il yarımlıq vizalardır. Ad çəkməyəcəyəm, çünki onları növbəti verilişdə deyəcəyəm. Vizalar Ermənistan hökumətinin üzvləri, onların arvadları, uşaqları və məşuqələri üçün nəzərdə tutulub. Fransa səfirliyi isə 1991-ci ildən bu günə qədər Ermənistanın ən korrupsiyalaşmış səfirliyidir", – deyə Nikolyan bildirib.

L.Nikolyanın açıqlamaları bir daha göstərir ki, Fransa kimi ölkələrin siyasətində, ilk növbədə, hərbi-ticari sənayenin maraqları öncül yer tutur. Afrika bazarını itirən Makron hökuməti dəmir maşınlarını Ermənistana satmaqla yaxın çevrəsinə yeni sifarişlər verir.

*S.ELAY*
*XQ*

Futbol tariximizdən

**30 noyabr 1966-cı il. "Neftçi" 28-ci SSRİ çempionatının finişində doğma stadionda 40 mindən çox tamaşaçının izlədiyi və hədsiz zövq aldığı görüşdə Moskvanın "Spartak" komandasına 3:0 hesabı ilə qalib gələrək, tarixində ən böyük nailiyyətini qazanır. Bürünc medallar Anatoli Banişevski, Kazbek Tuayev, Adil və Yaşar Babayevlər, Sergey Kramarenko, Valeri Hacıyev, Mübariz Zeynalov, Vyaçeslav Semiqlazov, Nikolay Boqdanov, Aleksandr Trofimov, Vladimir Bruxti, Anatoli Qryazev və onların oyundaşlarının bütün mövsüm ərzində gözəl oyununa layiqli mükafat idi. Bu gün həmin gənclərin çoxu həyatda yoxdur. Amma onlar, eləcə də, baş məşqçi Əhməd Ələsgərov, məşqçi Valentin Xlıstov, komandanın rəisi Şövkət Orduxanov başda olmaqla bütün kollektiv daim minnətdarlıqla xatırlanır.**

# Doktor Xetaqurov

Tarixi uğurun qazanılmasında komandanın həkimi Boris Xetaqurovun da əməyi böyük olmuşdur. Bu insan 1964-cü ildə Azərbaycan Dövlət Tibb İnstitutunda təhsilini başa vurduqdan sonra respublikamızın ən yaxşı komandası, hazırda 86 yaşlı "Neftçi"də əmək fəaliyyətinə başlayıb, uzun illər ərzində onun oyunçularının sağlamlığı və daim mübariz idman formasında olmaları qayğısına qalmış, sonralar da müəyyən fasilələrlə "Xəzər-Lənkəran"da, "Qarabağ"da və milli komandamızda çalışmışdır. Həmişə də harada işləməsindən asılı olmayaraq, peşəkar fəaliyyəti ilə etimadı tam doğrultmuş, futbolçuların da, komandaların rəhbərlərinin də hörmətini qazanmışdır. Komanda üzvləri oyun zamanı aldıqları zədələrdən sonra tezliklə yenidən yaşıl meydana qayıtmalarında həkimin böyük köməyini razılıq hissi ilə qeyd edirdilər.



İdman tibbində yüksək kateqoriyalı həkim B.Xetaqurov ötən illərdə müsahibələrindən birində futbola məhəbbətlə, 40 ildən də bir qədər çox müddətdə tərkibində fəaliyyət göstərdiyi komandaya rəğbət və ehtiramla demişdi ki, məni bütün dünyaya "Neftçi" tanıdıb.

Təkcə Azərbaycanda deyil, xarici ölkələrdə də futbol dairələrində yaxşı tanınan və dəfələrlə müxtəlif mükafatlara layiq görülən respublikamızın Əməkdar həkimi həm də oyunlar zamanı fotolar da çəkirdi. Bir dəfə, 1986-cı il iyulun 9-da 49-cu SSRİ çempionatının Leninqradda keçirilmiş və 2:1 hesabı ilə bakılıların xeyrinə başa çatmış "Zenit"—"Neftçi" görüşündə hesab 1:1 olarkən 84-cü dəqiqədə Məşallah Əhmədovun vurduğu qolu peşəkar fotoqraf kimi məharətlə lentə alır. Oyundan dərhal sonra Bakıya göndərdiyi foto o zaman respublika mətbuatında, o cümlədən əməkdaşı olduğum "İdman"–"Sport" qəzetlərində dərc edilərək, futbol həvəskarlarının diqqətinə çatdırılmışdı. Həmin oyunda birinci topumuzu İsgəndər Cavadovun vurduğunu da xatırladım.

Ötən yay, avqustda 83 yaşı tamam olmuş hörmətli doktor, təbii ki, yenə futbol dünyasında baş verən hadisələri diqqətlə izləyir. İndi o uzaq illərdəki kimi meydançanın kənarındakı skamyadan yox, evdə teleekran qarşısında.Bu gözəl oyun onun həyatının bir parçasıdır. Boris Xetaqurov bir dəfə deyibmiş ki, görüş zamanı hər şeyi unudub, özümü oyunun içində bilirəm.

Yaşayın və futboldan zövq almaqda davam edin, Boris Naneyeviç!

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

Sərgi salonlarında

# "Anlam"ın düşündürücü anlatmaları

**Müasir İncəsənət Muzeyində Azərbaycan rəssamı Soltan Soltanlının rəngkarlıq və qrafika əsərlərindən ibarət "Anlam" adlı sərgisi açılıb. Bir neçə mövzunu əhatə edən, 56 yağlı boya, 25 qrafik əsərin yer aldığı sərgidə qabarıq görünən bir mənzərə var.**



Sərginin "Anlam" adlandırılması təsadüfi deyil. Bu, hadisələrə, həm də, fəlsəfi yanaşma nəticəsində rəssam düşüncəsinin dərin qatlarından qaynaqlanan bir anlamdır.

Rəssam, rəsmlərin mövzularını, əsasən, həyatdan götürsə də, bunlar adi gözlə görünmür. Soltan Soltanlının əsərlərindəki qadın obrazları xüsusilə seçilir. "Qadın mal başı ilə", "Eşq", "Daranan qız", "Bulud altında çimən qadınlar", "Asılmış qadın", "Pəhləvan qadın" və digər rəsmlərdəki obrazlar bu baxımdan xüsusilə düşündürücüdür.

Fırça ustasının yaradıcılığında at mövzusu da ayrıca yer tutur. Burada atın daha çox insanla qarşılıqlı münasibətləri, dostluq, qarşıdurma, eləcə də instiktiv mehr əks etdirilir. "Yalından asılmış at", "Konkur atı", "Sərxoş atlı və at", "Akrobatik anlaşma", "Cəzalanmış kişi", "Qarşılıqlı asılılıq" və digər rəsmlərdə rənglər danışdıqca insanlar susaraq dinləyirlər.

Rəssam "XQ"yə açıqlamasında bildirdi:

–Mənim yaradıcılığım, həyat yolum fəlsəfəyə, düşüncəyə bağlıdır. Həyat fəlsəfəmə görə, kətanı, rəngləri adi mövzular üçün israf etməməliyəm. Rəssamlıq yalnız təsvir sənəti deyil, o, ən başlıcası, düşüncə sənətidir.

Soltan Soltanlının fantaziya, təxəyyül imkanları "Xəyali mənzərələr"də daha gənişdir. Bütün əsərlərində təbiət olsa da, bunların heç biri gerçək deyil. Bu mənzərələrin üreyə nüfuz edən inandırıcılığı xəyal və gerçəkliyin harada başlayıb, harada sona çatdığını ayırd etməyə imkan vermir.

Sərgi iştirakçılarından biri, Azərbaycan Rəssamlar İttifaqının üzvü Rəna Məmmədova isə sərginin, həqiqətən, fərqli olduğunu dedi:

–Burada nümayiş etdirilən əsərləri qruplaşdırmaq mümkün deyil. Bunların hər biri böyük bir mövzunu əhatə edir. Heyranlıqla izlədiyimiz "Gələcəyin şəhəri" kompozisiya baxımından da tam başqadır. Ümumiyyətlə, burada nümayiş etdirilən bütün rəsmlərdə fəlsəfi məna var. Bu əsərlər insanları düşünməyə məcbur edir.

Soltan Soltanlının yaradıcılığı beynəlxalq aləmdə də maraqla qarşılanır. 1997-ci ildən bugünədək dünyanın müxtəlif ölkələrində keçirilən yarış, festival və sərgilərdə ölkəmizi layaqətlə təmsil edən rəssam bu müddətdə bir çox xarici mükafatlara layiq görülüb. Fırça ustasının əsərləri dünyanın 50-dən çox ölkəsində muzey və şəxsi kolleksiyalarda qorunur.



"Anlam" sərgisi dekabrın 2-dək davam edəcək.

*Leyla QURBANOVA*
*XQ*


# "Səba" ASC-nin səhmdarlarının nəzərinə!

11 dekabr 2023-cü il saat 15.00-a təyin edilmiş Abşeron rayonu, Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 1 nömrəli ünvanda keçiriləcək "Səba" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının növbədənkənar ümumi yığıncağının gündəliyinə dəyişikliklər edilmişdir.

Ümumi yığıncağın gündəliyinə aşağıdakı məsələlərin müzakirəsi daxil edilmişdir:

1. "Səba" Açıq Səhmdar Cəmiyyətinin təsisçisi olduğu "Dəvəçi Broyler Dərin Emal" MMC-nin ləğv edilməsi haqqında.
2. "Səba"ASC-nin törəmə cəmiyyəti olan "Qarabağ Taxıl" MMC-nin 2022-ci maliyyə-təsərrüfat ilinin nəticələrinə əsasən dividendlərin elan edilməsi.
3. "Səba"ASC-nin törəmə cəmiyyətlərində iştirak payları və törəmə cəmiyyətlərin ümumi yığıncaqlarında təmsil edilmə barədə.
4. "Səba"ASC-nin nizamnamə kapitalı haqqında.
5. "Səba"ASC-nin yeni redaksiyada nizamnaməsi haqqında.

Ümumi yığıncağa gələn səhmdarlar şəxsiyyəti təsdiq edən sənəd, səhmdarların nümayəndələri isə şəxsiyyəti təsdiq edən sənəd və nümayəndənin səlahiyyətini təsdiq edən etibarnamə təqdim etməlidirlər.

Əlaqə telefonu – +994124044441;

Ünvan – AZ0100, Abşeron rayonu, Xırdalan şəhəri, Heydər Əliyev prospekti,1.

*"Səba"ASC-nin İdarə Heyəti*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 252 (30368) 19 noyabr 2023-cü il, bazar


# OXUCULARIN NƏZƏRİNƏ!

## “Xalq qəzeti”

*2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*


Qarabağ Azərbaycandır!
Xalq qəzeti
Varislik ənənəsində Qələbə ovqatı
Lider xalqa söykənəndə

Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


Turizm

# Türkiyəyə rekord gəliş

**Bu ilin yanvar–sentyabr ayları arasında Türkiyəni 45,2 milyon turist ziyarət edib. Bunu Türkiyənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoy açıqlayıb.**



O bildirib ki, bu il noyabrın 10-a qədər Türkiyədə, ümumilikdə, 7805 yerləşdirmə obyekti dayanıqlı turizm sertifikatı alıb, yeni yay mövsümünə qədər bu sənədin bütün turizm müəssisələrinə verilməsi hədəflənib.

Dayanıqlı turizm baxımından dünyanın qabaqcıl ölkələrindən olan Türkiyəni əvvəlki illə müqayisədə 2022-ci ildə 71 faiz artımla 51,4 milyon nəfərin ziyarət etdiyini xatırladan nazir bu dövr ərzində hər turistdən günlük gəlirin 89 ABŞ dolları, 2023-cü ildə isə 100 ABŞ dolları olduğunu deyib.

Nazir bu ilin doqquz ayı ərzində Türkiyənin turizm sektorundan 42 milyard dollar əldə etdiyini bildirib.

XQ

İdman xəbərləri

## 2 boksçumuz Avropa finalında



**22 yaşadək boksçular arasında təşkil edilən Avropa çempionatında Azərbaycanın 2 idmançısı finala yüksəlib.**

Monteneqronun Budva şəhərində keçirilən yarışda Nicat Hüseynov (51 kq) yarımfinalda türkiyəli Semih Gümüşü 5:0 hesabı ilə məğlub edib. Bununla da, Avropa çempionumuz ardıcıl ikinci dəfə qitə birinciliyinin finalına vəsiqə əldə edib. Onun uğurunu 57 kiloqram çəkidə mübarizə aparan Əzrək Bəbirov da təkrarlayıb. O, final uğrunda döyüşdə rusiyalı Rafiq Əmirxanov üzərində 3:2 hesabla qələbə qazanıb.

Komanda üzvlərindən yarımfinalda uduzan Tural Sarıyev (48 kq), Murad Allahverdiyev (80 kq) və Marjona Savriyeva (50 kq) isə Avropa çempionatının bürünc mükafatı ilə kifayətləniblər.

## Cüdoçularımızın 5 medalı

**Azərbaycan cüdoçuları Almaniyanın Potsdam şəhərində 23 yaşa qədər idmançılar arasında keçirilən Avropa çempionatında 5 bürünc medal qazanıblar.**



Komandamızın üzvlərindən Məhəmməd Musayev (60 kq), Aydın Rzayev (66 kq), Nəriman Mirzəyev (73), Aydan Vəliyeva (52 kq) və .Məhərrəm İmamverdiyev (81 kq) 3-cü yerə layiq görülüblər.

Yarışda Azərbaycanı 16 cüdoçu təmsil edib.

## “Neftçi” “Zenit”i məğlub etdi

**“Neftçi” dünən yoldaşlıq oyunu keçirib.**



Bakı klubu milli komandaların oyunları ilə əlaqədar yaranan fasilədə Rusiya təmsilçisi “Zenit”lə qarşılaşıb.

Komandalar “Neftçi Arena”da üz-üzə gəliblər. Oyun təmsilçimizin 2-1 hesablı qələbəsi ilə yekunlaşıb.

*Leyla SABİRQIZI*
XQ

Mədəniyyət

# Sankt-Peterburq Ulu öndəri yad edib



**Sankt-Peterburqda Ulu öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə klassik musiqi gecəsi təşkil edilib. Musiqi gecəsi Azərbaycan Respublikasının Diaspora ilə İş üzrə Dövlət Komitəsi, ölkəmizin Sankt-Peterburqdakı Baş Konsulluğu və “Tavriya sarayı”nın birgə təşkilatçılığı ilə baş tutub.**

Xalq artisti, dirijor Yalçın Adıgözəlovun rəhbərliyi altında “Tavriya” Beynəlxalq Simfonik Orkestrinin müşayiəti ilə Əməkdar artistlər Elnarə Məmmədova, Regina Rüstəmova, Mariya Teatrının solistləri Məhərrəm Hüseynov və Həmid Abdulovun ifasında Azərbaycan və Rusiya bəstəkarlarının sevilən əsərləri tamaşaçılar tərəfindən böyük coşqu ilə qarşılanıb.

Xalq artisti Yalçın Adıgözəlov qeyd edib ki, Ulu öndər Heydər Əliyev dəfələrlə Sankt-Peterburqda olub, görüşlər keçirib. “Burada Heydər Əliyevi çox yaxşı xatırlayırlar. Onların bəziləri həyatdadır və mən onların bir neçəsi ilə görüşdüm, xatirələrimizi bölüşdük. “Tavriya sarayı”nın möhtəşəm salonunda Heydər Əliyevin yubileyi şərəfinə gecədə iştirak etmək mənim üçün böyük şərəfdir”, – deyə dirijor bildirib.

XQ

# Cavid təbəssümü



### “Tanrı sənin “beş”ini verib”

Hüseyn Cavid gözəl qadını, qızı göydən enmiş mələk sayırdı. Günlərin birində gözəllik ilahəsi kimi füsunkar, lakin bilikdən kasad bir tələbə imtahana gəlir. Suallara cavab verə bilməyən qızın xarici gözəlliyi şairin gözlərini qamaşdırır. Qız cavablarının düz olmadığını bilir və yalvarırmış kimi deyir:

– Müəllim, xahiş edirəm, mənə pis qiymət yazmayın.

Şair gözəllik qarşısında vəcdə gəlir:

– Qızım, Tanrı yaradanda sənin “beş”ini verib. Nə ixtiyarım var, Yaradanın qiymətini korlayam, – deyə qıza “beş” yazır.

### “Ya çəkməsilən, ya pivəsatan”

Hüseyn Cavid həmişə səliqəli geyinərmiş, ayaqqabısı isə par-par parıldayarmış. Bir gün ayaqqabısını çəkməsilənə təmizlətdirəndə görür ki, oğlan buna baxıb gülümsəyir.

– Yaxşı oğlan, niyə bic-bic gülürsən? – deyə çəkməsiləndən soruşur.

Çəkməsilən utana-utana, amma yenə gülümsəyərək deyir:

– Bağışlayın, Cavid Əfəndi, siz mənim müəllimim olmusunuz.

H.Cavid əllərini bir-birinə vurub şaqqanaq çəkərək deyir:

– Düz deyirsən, bala, mənim tələbələrim ya çəkməsilən olur, ya da pivəsatan.

### “Şairlik deyil ki, bacarmayaq”

Deyilənə görə, Hüseyn Cavid yaxşı nərd oynayırmış. İstedadlı gənc şair Mikayıl Müşfiqlə oyundan isə xüsusi zövq alarmış. Əksər vaxt Müşfiq zəif oynadığından onu məğlub edərmiş. Cavid Əfəndi oyunda bəxti gətirməyən Müşfiqi udan kimi də təvazökarlıqla deyərmiş:

– Bu da şeir deyil ha, yaza bilməyək, oyundur, icad edən gəlsin!

**Z.HÜSEYNLİ**
XQ

TEXNOLOGİYA YENİLİKLƏRİ

# Süni intellekt kardioloqdur

**Texnologiyaların inkişafı səhiyyə sahəsində xəyal edilənləri aşmaqdadır. Tibbin gen tədqiqatları sayəsindəki inanılmaz inkişafını nəzərə alsaq, bu gedişlə gələcəkdə bir insanın hansı yaşda hansı xəstəliyə tutula biləcəyini öncədən bilmək təəccüblü olmayacaq.**

Süni intellektin sayəsində tibbi personal xəstələrin sağlamlıq tarixçələrini, test nəticələrini və diaqnozlarını tez bir zamanda əldə edəcək. Onlar xəstəliyi düzgün proqnozlaşdıra bilirlər. Oksford Universiteti tərəfindən aparılan bir araşdırmada süni intellektin minlərlə infaktın dəqiq proqnozunu verə biləcəyi müəyyən edilib. Bildirilib ki, süni intellekt vasaitəsilə indiyədək 3 mindən çox infakt düzgün proqnozlaşdırılıb. Tədqiqatçılar



İngiltərədəki 8 xəstəxanada KT müayinəsindən keçən 40 mindən çox xəstənin məlumatlarını təhlil ediblər. Süni intellekt tərəfindən risk balları daha yüksək olan 744 xəstə üçün səhiyyə müəssisələrinə müraciət edilib. Nəticədə, müalicə planları həkimlər tərəfindən 45 faiz dəyişdirilib.

*P.ƏFƏNDİ*
XQ

ELM

# “Gələcəyin tədqiqatçıları”

**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) ölkəmizdə sosial elmlər üzrə kadr potensialına töhfə verəcək yeni layihənin icrasına başlayıb. Bu barədə UNEC Empirik Tədqiqatlar Mərkəzinin rəhbəri dosent Xətai Əliyev məlumat verib.**

Alim bildirib ki, UNEC Empirik Tədqiqatlar Mərkəzi tərəfindən icra olunan və UNEC Tədqiqat Fondu tərəfindən maliyyələşdirilən “Gələcəyin tədqiqatçıları” layihəsi həyata keçirilir. Layihə çərçivəsində UNEC-in 57 tələbəsi seçilərək Mərkəzin rəhbər müavini, Böyük Britaniyanın Qlazqo Universitetinin doktorantı Nicat Muradzadə tərəfindən keçirilən 32 saatlıq onlayn təlimə cəlb olunub.

Layihənin məqsədi UNEC tələbələrində elmi tədqiqata marağı artırmaq, onlara zəruri tədqiqat bacarıqları aşılamaq və akademik mentor nəzarətində elmi məqalə yazmalarına nail olmaqdır. Layihə çərçivəsində, azı, 20 iştirakçının potensial tədqiqatçı kimi yetişdirilməsi və yazılan elmi məqalələrin nüfuzlu beynəlxalq elmi jurnallarda dərc olunmasına dəstək verilməsi planlaşdırılır.

XQ

Hava

# Bakıda leysan yağacaq

**Milli Hidrometeorologiya Xidmətindən verilən xəbərə görə, Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Gecə yarımadanın bəzi yerlərində qısamüddətli leysan xarakterli olacağı ehtimalı var. Gündüz tədricən kəsiləcək. Mülayim cənub-şərq küləyi səhər arabir güclənəcək.**



Havanın temperaturu gecə 8-13° isti, gündüz 15-18° isti olacaq. Atmosfer təzyiqi 761 mm civə sütunundan 754 mm civə sütununa enəcək. Nisbi rütubət 75-85 faiz olacaq.

Azərbaycanın rayonlarında havanın, əsasən, yağmursuz keçəcəyi gözlənilir. Lakin axşam bəzi yerlərdə arabir yağış yağacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 7-11° isti, gündüz 15-19° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 4-9° isti olacaq.

*Q.QASIMOV*
XQ

## ALLAH RƏHMƏT ELƏSİN

“Xalq qəzeti”nin kollektivi tanınmış türkoloq

**ARİF ACALOVUN**

faciəli vəfatından kədərlənir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4806
SİFARİŞ 2966
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır
00:00